

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Özbəkistan mətbuatında birinci xanım Mehriban Əliyevaya həsr edilmiş məqalə yayımlanıb




3

SƏS
№ 148 (7073)
17 avqust 2024-cü il.
Qiymәti 60 qəpik

# Böyük Qayıdış: biz yurdumuzu DİRÇƏLDİRİK!



2

# Azərbaycan azad və demokratik seçki keçirmək ənənəsinə sadiqdir



7

## COP29 ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib



3

## İnternetdə keçən ömür, smartfondan asılı həyat



15

## Müslüm Maqomayev: bir ömür "Azərbaycan"



12

## Sərhəd Vətən, onu qoruyan sərhədçidir



5

## Ucuz penisillinin bahalı nəsli – antibiotiklər



9

# Böyük Qayıdış: biz yurdumuzu DİRÇƏLDİRİK!

## Prezident İlham Əliyev: "Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq"



Dünyanın nəzər nöqtəsində olan Azərbaycan Zəfər tarixindən sonra yeni reallıqlar yaradıb. 44 günlük Vətən müharibəsindən sonra qısa bir zamanda, həmin ərazilərdə aparılan abadlıq-quruculuq işləri Azərbaycanın iqtisadi gücünə, dinamik inkişafına söykənir. Əlbəttə ki, aparılan abadlıq-quruculuq işləri paralel olaraq ölkəmizin hər bir bir bölgəsində həyata keçirilir. Azərbaycanın rayonları, şəhər, kənd və qəsəbələri öz abadlığı, gözəlliyi və müasir görkəmi ilə fərqlənir. Bunlarla yanaşı, insanların sosial durumu - həyat şəraiti, mütəmadi olaraq, yaxşılaşdırılır. Qazanılan nailiyyətlər xalqımızı daha böyük qələbələrə və zəfərlərə ruhlandırır. İctimai, siyasi, iqtisadi və hüquqi islahatlar həm ayrı-ayrı sahələrin davamlı inkişafını təmin edir, həm də Azərbaycanın qüdrətli dövlət kimi tərəqqisini şərtləndirir.



Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad olunan ərazilərdə görülən işlər - yeni infrastrukturun yaradılması, yeni yolların çəkilməsi, körpülərin salınması və s. ölkəmizin reallıqlarına əsaslanır. Ölkə Prezidentinin Sərəncamı ilə ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işlərinin daha da vüsət almasına böyük təkan verir. Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoyub. Yaşıl enerji zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı layihələr həllini tapır. Cənab Prezidentin mütəmadi olaraq işğaldan azad olunan ərazilərə səfərləri və bu məkanlarda görülən işlərlə tanışlığı, eləcə də bir sıra obyektlərin təməlini qoyması minlərlə əzəli sakinin öz yurdunda məskunlaşmasına səbəb olub və bu davam etməkdədir. Azərbaycanın bugünki reallıqları Prezident İlham Əliyevin müdrik siyasətindən qaynaqlanır.

### “DEYİRDİM Kİ, GÜN GƏLƏCƏK, İŞĞAL ALTINDAKI TORPAQLARIMIZ AZAD EDİLƏCƏK, BİZ BU TORPAQLARA QAYIDACAĞIQ VƏ QAYITMIŞIQ”

Azərbaycan 30 ilə yaxın bir zamanda işğal altında olan ərazilərini azad etdi. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymadı və öz işğalçı siyasətini davam etdirdi. Artıq Azərbaycan müharibə yolu ilə öz torpaqlarını işğaldan azad edib və tarixi ədalət bərpa olunub. ”Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Azərbaycan xalqı bütün bu illər ərzində Mənə inanırdı”, – deyə Prezident bildirib. Bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinin miqyası genişlənib və nəhəng işlər görülür. Vurğulayaq ki, artıq Prezidentimizin işğaldan azad olunan ərazilərə səfərləri tarixi hadisəyə çevrilir. Ermənilərin yaratmaq istədikləri mif tarixə qovuşub. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət köç karvanları əzəli torpaqlarda əbədi yurd salırlar. Vətən müharibəsində qazandığımız Zəfərdən dörd ilə yaxın zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Böyük Qayıdışımızı reallığa çevirmək məqsədi ilə davamlı işlər görülür. Vaxtilə qovhaqovla el-obalarından qaçqın düşənlərin ruzigarlarına salınan naxış bu gün öz rəngini dəyişib. Viran qalmış yurd yerlərinə əzəli sakinlər artıq sahibdirlər.

### “AZƏRBAYCANDA SEPARATİZMİN KÖKÜ KƏSİLDİ VƏ SEPARATİZM - BU BƏLA BİZİM TORPAĞIMIZDA BİR DAHA BAŞ QALDIRA BİLMƏZ”

Azərbaycan tərəfi qanunsuz erməni qüvvələrinin mövcudluğuna son qoymaq və bütün ərazilərində tam suverenliyi bərpa etmək məqsədilə, Qarabağ bölgəsində 24 saat ərzində antiterror tədbirləri həyata keçirdi. Azərbaycan Ordusunun Qarabağda başlatdığı 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı. ”2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb.



Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi”, - deyə Azərbaycan Prezidenti bildirib. Sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir. Separatçı rejim çökmüş, ağ bayraq qaldırmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi.

2023-cü il tariximizdə Böyük Qayıdışın sürətli inkişaf mərhələsi oldu. İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri bölgənin minalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsi vasitəsilə əhalinin, infrastruktur və istehsal obyektlərinin, həmçinin strateji əhəmiyyətli tikililərin və binaların təhlükəsizliyinin təmin edilməsidir. Bu ərazilərdə enerji infrastrukturunun qurulması və regionun enerji, o cümlədən bərpa olunan enerji potensialından səmərəli istifadə çərçivəsində əhalinin infrastruktur təminatının yaxşılaşdırılması və layiqli həyat şəraitinin yaradılması üçün elektrik, su, qaz, istilik təchizatı və kanalizasiya xidmətlərinin qurulması istiqamətində sistemli tədbirlər həyata keçirilib.

### İŞĞALDAN AZAD OLUNAN ƏRAZİLƏRDƏ 156 MİN HEKTARA YAXIN ƏRAZİ TƏMİZLƏNİB

Vurğulayaq ki, Ermənistanın cinayətkar əməlləri günahsız insanların həyatlarına təhlükə yaratmaqda davam edir. Kütləvi insan tələfatına səbəb ola biləcək minaların xəritəsi tam olaraq hələ də Azərbaycana verilməyib. Ermənistan tərəfindən mülki əhalinin yaşayış yerlərinin yaxınlığında minalar basdırılması və Azərbaycan tərəfinin çoxsaylı çağırışlarına baxmayaraq, dəqiq mina xəritələrinin təqdim edilməməsi beynəlxalq humanitar hüquqa zidd olmaqla, insanların bir çox fundamental hüquqlarının pozulmasına gətirib çıxarır. Bununla bağlı Azərbaycan tərəfimizdən dəfələrlə beynəlxalq təşkilatlara müraciətlər edilsə də, nəticə əldə olunmayıb.

Bu gün Tərtər, Ağdam, Füzuli, Şuşa, Qubadlı, Cəbrayıl, Zəngilan kimi ərazilərimizdə aparılan minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə, tank əleyhinə yüzlərlə partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilir. Bu günə qədər işğaldan azad olunan ərazilərdə 156 min hektara yaxın ərazi təmizlənib, 151 mindən çox mina və PSH aşkarlanaraq zərərsizləşdirilib.

Azərbaycanda artıq yeni bir dövr başlayıb. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər bizi yurd yerinə qaytardı. Hədəflər düzgün müəyyən edildiyindən qarşıya qoyulan məqsədlər öz həllini tapır. ”Böyük Qayıdış Proqramımızın birinci mərhələsinin sonunda - 2026-cı ilin sonunda 22 min insan Füzuli rayonunda yaşayacaq, bütövlükdə isə Qarabağ və Şərqi Zəngəzurda 140 min insan yaşayacaq. Yəni, bu, belə demək mümkündürsə, ən minimal göstəricidir. Mən əminəm ki, bundan daha böyük sayda insanlar məskunlaşacaq, çünki birincisi, bizim buna gücümüz çatır, iradəmiz var, Böyük Qayıdış Proqramı qəbul olunub, uğurla icra edilir, artıqlaması ilə icra edilir və əsas amil odur ki, bizim keçmiş köçkünlər səbirsizliklə o günləri gözləyirlər” – deyə Prezident bildirib.

**Zümrüd BAYRAMOVA**

# Özbəkistan mətbuatında birinci xanım Mehriban Əliyevaya həsr edilmiş məqalə yayımlanıb

***Azərbaycanın Özbəkistandakı səfirliyinin təşəbbüsü ilə Özbəkistan mətbuatında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya həsr edilmiş məqalə yayımlanıb. Mədəniyyət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, müəllifi Azərbaycanın Xalq yazıçısı, tanınmış jurnalist Elmira Axundova olan məqalə özbək və rus dillərində ölkənin aparıcı "UzA" Milli İnformasiya Agentliyində, "aniq.uz", "uzdiplomat.uz", www.kultura.uz portallarında dərc edilib.***




"Uki, kimgadir ortig'i bilan berilgay..." ("Ta, komu mnoqoe dano...") adlı məqalədə Birinci vitse-prezident Mehriban xanım Əliyeva haqqında ən səmimi fikirlər, ülvi hisslər yer alıb. Yazıda birinci xanım Mehriban Əliyevanın ölkəmizin sosial, mədəni, ictimai, siyasi həyatında oynadığı aparıcı roldan söz açılır. Bildirilir ki, Mehriban xanımın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda hər il onlarla uşaq bağçası, körpələr evi, internat məktəbi, xəstəxana və s. bərpa olunaraq istifadəyə verilir. Bundan əlavə, Azərbaycanda uşaq evlərinin və sığınacaqların institusionallaşdırılması, valideyn himayəsindən məhrum olmuş uşaqların tamhüquqlu ailələrə verilməsi hərəkatı başlayıb. Birinci xanım əhalinin ən həssas təbəqələrinə, ilk növbədə, xəstə uşaqlara, eləcə də sosial müdafiədən, valideyn himayəsindən və qayğısından məhrum olan balaca uşaqlara kömək etməyi özünün vətəndaşlıq borcu hesab edir.

Məqalədə o da vurğulanıb ki, Heydər Əliyev Fondunun xeyriyyə təşəbbüslərinin əks-sədası Azərbaycanın hüdudlarından çox-çox uzaqlara da yayılır. Fondun müxtəlif ölkələrdə gördüyü xeyirxah işlər həmin ölkələrin tarixinə, vətəndaşlarının qəlbinə əbədi olaraq yazılacaq.

Yazıda, həmçinin ölkəmizin mədəni-ictimai, idman həyatında Mehriban xanım Əliyevanın xidmətlərindən də söz açılır. Qeyd edilir ki, Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə regional deyil, həm də qlobal miqyas alıb. Məhz onun təşəbbüsü ilə Azərbaycan muğamı və dünyanın ən qədim tarixi-arxeoloji qoruğu olan Qobustan yaşayış məskəni, aşıq sənəti və Azərbaycan kəlağayısı, Novruz bayramı və milli atüstü oyun olan çövkən dünya qeyri-maddi mədəni irs siyahısına salınıb.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafındakı xidmətlərindən söz açılarkən qeyd olunub ki, Avropada idmanın inkişafında xüsusi xidmətlərindəki yüksək nailiyyətlərinə görə ona Avropa Olimpiya Komitələrinin ali mükafatı – Ali orden təqdim edilib. Oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyət, xalqımızın mədəni irsinin beynəlxalq səviyyədə geniş təbliği və Birinci Avropa Oyunlarının təşkilindəki xidmətlərinə, yarışlarda əldə edilmiş böyük nailiyyətlərə görə isə Mehriban xanım Əliyeva "Heydər Əliyev" ordeni ilə təltif olunub.

Eyni zamanda, bildirilib ki, Azərbaycan xalqının, dövlətinin, dövlətimizin başçısının ən çətin, gərgin günlərində Mehriban xanım hər zaman xalqla həmrəylik nümayiş etdirib, Prezident İlham Əliyevin ən böyük mənəvi, siyasi dəstəkçisi olub. İşğaldan azad olunun torpaqlarımızda aparılan quruculuq işlərində də Mehriban xanımın böyük xidmətlərinin olduğu vurğulanan məqalədə diqqətə çatdırılıb ki, Qələbədən qısa müddət sonra həmin ərazilərdə Böyük Qayıdış və genişmiqyaslı bərpa-quruculuq işləri başlayıb. Bu prosesə rəhbərliyi Prezident İlham Əliyevlə birlikdə birinci xanım Mehriban Əliyeva da edir. Qarabağın bərpa edilmiş hər bir abidəsində, hər bir məscid və ya muzey kompleksində birinci xanıma xas olan incə zövq və heyrətamiz zəriflik hissi sezilir.

# COP29 ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib


















Avqustun 16-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin altıncı iclası keçirilib. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Prezident İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesinin bütün istiqamətlərdə davam etdiyini bildirib.

Təşkilat Komitəsinin sədri Prezident İlham Əliyevin iyulun 20-də 2-ci Şuşa Qlobal Media Forumunda COP29-la bağlı vacib tezislər səsləndirdiyini, dövlətimizin başçısının yanaşmasının inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulmasından ibarət olduğunu vurğulayıb.

Prezident Administrasiyasının rəhbəri Prezident İlham Əliyevin COP29 gündəliyimizi proqnozlaşdırılabilən, aydın məqsədlərə və nəticələrə köklənmiş gündəlik kimi xarakterizə etməsinə diqqət çəkərək dövlət qurumlarının, COP29 heyətinin bundan sonra da var gücü ilə çalışmasının vacibliyini vurğulayıb.

Samir Nuriyev noyabrın 12-13-də keçiriləcək Liderlər Sammitinə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının tərəflərinə dəvətlər ilə bağlı tam inklüzivliyin təmin edildiyini bildirib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında yeni maliyyə hədəfi üzrə mövcud fikir ayrılıqlarının aradan qaldırılması üçün səmimi səylər göstərdiyini və bu xüsusda, iyulun 26-27-də müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində Şamaxıda qeyri-rəsmi məsləhətləşmələr kimi innovativ format təşkil etdiyini diqqətə çatdırıb.

Samir Nuriyev bildirib ki, Azərbaycan Hökuməti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyi arasında imzalanacaq "Ev Sahibi Ölkə" Sazişinin yekun mətni tam razılaşdırılıb.

Təşkilat Komitəsinin sədri Azərbaycanın COP29 təşəbbüslərinin geniş ictimaiyyətə açıqlandığını, COP atəşkəsi və İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılması təşəbbüslərinin beynəlxalq müstəvidə daha çox diqqət çəkdiyini bildirib.

Samir Nuriyev Azərbaycan tərəfindən inkişaf etməkdə kiçik ada ölkələri üçün Texniki Yardım Fondunun yaradılmasına, "Azərkosmos" tərəfindən kiçik ada ölkələrində iqlim dəyişmələri üzrə layihələrin həyata keçirilməsinə dair anlaşma memorandumlarının avqust ayının sonlarında Millətlər Birliyi (Commonwealth) təşkilatı ilə imzalanacağı barədə məlumat verib.

COP29 Beynəlxalq Məşvərət Komitəsinin və COP 29 Elm Şurasının iclaslarına toxunan Samir Nuriyev hər iki təsisatın imkanlarından maksimum dərəcədə faydalanmağın vacibliyini qeyd edib.

Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş Prezidenti Muxtar Babayev COP29-la bağlı ümumi gedişat, müxtəlif ölkələrin nümayəndə heyətlərinin rəhbərləri səviyyəsində iyulun sonlarında Şamaxıda keçirilmiş qeyri-rəsmi məsləhətləşmələr, COP29 komandasının nəzərdə tutulan xarici səfərləri barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin Protokol xidmətinin rəisi Arif Səmədov COP29 çərçivəsində Liderlər Sammitinə hazırlıq barədə çıxış edib. Daxili işlər naziri Vilayət Eyvazov COP29 zamanı ictimai təhlükəsizliyin təmin edilməsi tədbirləri barədə danışıb və bütün zəruri tədbirlərin həyata keçirildiyini deyib.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev COP29 zamanı nəqliyyatın təşkili, o cümlədən hava limanlarının qəbul imkanları barədə çıxış edib. Sonra COP29-un iqlim üzrə yüksək səviyyəli çempionu Nigar Arpadarainin COP29-un iqlim üzrə yüksək səviyyəli çempionunun fəaliyyəti barədə çıxışı dinlənilib. Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyev COP29-la əlaqədar dövlət sərhədindən buraxılış məntəqələrinin fəaliyyəti barədə məlumat verib.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri Nərmin Carçalova təşkilati-logistika məsələləri, Bakı Olimpiya Stadionunda aparılan işlər, "Mavi" və "Yaşıl" zonalar və orada tədbirlərin, pavilyonların təşkili barədə danışıb.

Gənclərin Gender Bərabərliyi Mərkəzi "Gender Hub" ictimai birliyinin sədri Məryəm Məcidova qeyri-hökumət təşkilatlarının COP29-la bağlı fəaliyyəti barədə məlumat verib. İclasın sonunda COP29 Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

# Azərbaycan sevdalı böyük ifaçı







Dünyanı mahnıları ilə gəzən və hər bir ifasında Azərbaycanı, onun gözəlliyini vəsf edən Müslüm Maqomayev bir ömür yolunda böyük bir sənətkar ömrü yaşadı. Mahnıları ilə, Azərbaycanı eldən-edə tanıtması ilə. Hansı ölkədə olmasından asılı olmayaraq. böyük sevgi ilə Azərbaycandan söz açdı. Ey əziz anam, Azərbaycan! - deyərək, onu qucağında bəsləyən vətəni ülvi hissləri ilə dünyaya təqdim edəndə bir övlad sevgisini ifadə etmiş oldu. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi, ”Azərbaycan xalqı haqlı olaraq Müslüm Maqomayevlə fəxr edir. Çünki o, həm böyük müğənni, həm də böyük bəstəkar idi. Sovet estradasında onun tayı-bərabəri yox idi və bu gün də Müslüm Maqomayevin ifasında səslənən mahnılar hər birimizi duyğulandırır. Hər birimizin Müslüm haqqında öz xatirələri var, o cümlədən mənim də”. Cənab Prezident qeyd edib ki, Müslüm öz doğma Vətəninə çox bağlı olan bir insan idi.

Moskvada və Sovet İttifaqının digər şəhərlərində qastrollarda daha çox olsa da ürəyi Azərbaycanla həmahəng vurub. Cənab Prezidentin qeyd etdiyi kimi, ”Hər il bir neçə dəfə Bakıya gəlirdi, həm konsertlər verirdi, həm də ki, burada öz dostları ilə təmasda olurdu. Artıq gənc yaşlarında ümumittifaq şöhrəti qazananda, əlbəttə ki, atam Heydər Əliyev də onun fəaliyyətinə çox böyük diqqət yetirirdi, böyük qayğı göstərirdi. Deyə bilərəm ki, ona atalıq qayğısı göstərirdi. Çünki onu həm böyük müğənni kimi, həm də çox gözəl insan kimi tanıyırdı. Hər birimiz Müslümü məhz həm böyük sənətkar, müğənni, bəstəkar və ən başlıcası, gözəl insan, ləyaqətli insan, çox etibarlı dost kimi tanıyırdıq”.

Böyük musiqiçi idi Müslüm Maqamayev. Dildən-dilə düşərək, dünyanı klassik musiqisi ilə gəzən sənətkar sanki ifası ilə bəşəriyyətin dilində danışmağı bacarırdı. Tərcüməyə ehtiyac olmadan qitələrə yol açan musiqisində insanları sanki biri-birinə yaxınlaşdırdı. Sərhədsiz musiqi dünyası ilə böyük bir məktəb yaratmış oldu. Bu məktəbdən çoxları keçdi, ona bənzəmək istədilər də. Amma Müslüm ola bilmədilər. Təkrarsız Müslüm Maqomayev. Onu bizdən çox da uzun olmayan bir zaman məsafəsi ayırsa da bu cismani yoxluq ruhi dünyalara bir soyuqluq gətirməmişdir. İstər ifası, istərsə də tərcümeyi-halı ilə nümunəvi bir ömür yaşadı.

## “EY ƏZİZ ANAM, AZƏRBAYCAN!”

Avqustun 17-də böyük sənətkarın doğum günüdür. Onun keçdiyi şərəfli ömür yolunun səhifələri zəngin və oxunaqlıdır. 1942-ci ildə Bakı şəhərində dünyaya göz açan dünya şöhrətli müğənni Müslüm Maqomayev gənclik illərini Bakıda keçirib. İlk dəfə olaraq, 14 yaşında ikən Dənizçilər klubunda çıxış edib. Qeyri adi-istedada malik olan M.Maqomayev 19 yaşında Helsinkidə gənclər festivalında, 1963-cü ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində uğurlu çıxışları ilə şöhrət qazanıb. 1960-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olub. Onun ən böyük arzularından biri İtaliyada təhsil almaq idi. Nəhayət, həmin gün yetişir və gənc Müslüm Azərbaycan Opera və Balet Teatrı tərəfindən ”La Skala” teatrına təcrübə toplamağa göndərilir. O, hələ uşaqlıqdan Mattia Battistini, Enriko Karuzo, Mario del Monako, Tinna Ruffo kimi italyan klassiklərinin qrammplastinkaları ilə maraqlanır, onlardan qiyabi olaraq vokal dərsləri alırdı. O, gənclik xəyallarını gerçəkləşdirib və ona Çenarro Barro, Enriko Pyatsa kimi canlı korifeylərdən dərs almaq nəsib olmuşdu. 1950-ci illərin axırlarında, yeniyetməlik və ilk gənclik illərində Bakı məhəllələrindən birindəki həyətlərində, dostlarının arasında oxuyardı. Bakıda tayı-bərabəri olmayan bu bariton səsi eşidən hər kəs istər-istəməz ona diqqət kəsilir, bu səsin sehrindən çıxa bilmirdi. M.Maqomayevin nadir səsi, qeyri-adi istedadı təbii ki, Azərbaycanın musiqi ictimaiyyətinin diqqətini də cəlb etmiş və məşhur dirijor və bəstəkar Niyazi ilə sıx təmasda olmuşdu. O, dövrünün təcrübəli pedaqoqlarından dərs almış və beləliklə, dünya şöhrətli bir ifaçıya çevrilmişdir. 1966-cı ildə Parisin ”Olimpiya” konsert salonunda ilk konsertini verir. İki il sonra 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirir və 1969-cu ildə Sopotda keçirilən Beynəlxalq Mahnı Festivalında ilk mükafatını alır. 1975-ci ildə Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri təyin edilib. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərləri ilə yanaşı Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsertlər verir. 1970-ci illərdən həyatını estrada ilə bağlayıb və görünməmiş populyarlıq qazanıb. Keçmiş SSRİ-nin hər yerində çıxışlar edib, stadionlarda konsertlər verib, televiziya onun konsertlərinə geniş yer ayırıb, qramoffon valları böyük tirajla buraxılır.

M.Maqomayevin sonrakı yaradıcılıq fəaliyyəti Moskva şəhərilə bağlıdır. Müslümün fitri istedadı burada çiçəklənməyə başlayır və öz bəhrəsini bir sıra mahnıların ifasında görür. Moskvanın görkəmli bəstəkar-nəğməkarları Müslümün səsinə uyğun olan xüsusi mahnılar bəstələməyə başlanılır. Bunların sırasında ”Buhenvald harayı”, ”Ruslar müharibə istəyirmi?” mahnıları, rus xalq mahnılarından ”Piter boyunca”, ”Mənim atlarım”, italyan mahnılarından ”Luçiya”, ”Sorento” və s. xüsusi yer tutur. Bununla yanaşı, onun repertuarında Azərbaycan mövzusu da öz əksini tapır. Bunlardan Ü.Hacıbəylinin iki romansı - ”Sənsiz”, ”Sevgili canan”, həm də babası M.Maqomayevin ”Şah İsmayıl” operasından Şah İsmayılın ariyasıdır. Ənənəyə sadiq qalaraq, M.Maqomayev öz bacarığını bəstəkarlıq sahəsində də müvəffəqiyyətlə sınayır. Bəstələdiyi mahnıların sırasında ”Ey əziz anam, Azərbaycan!” öz layiqli yerini tutur. Bildiyimiz kimi, o, konsertlərinin əvvəlində və sonunda, o daima bu mahnını qüvvətli səslə və qüdrət hissilə ifa edirdi, bu da dinləyicilərdə böyük qürur doğururdu. Ötən əsrin 80-ci illərdə kinoda ölməz Nizami rolunda çəkilməyə təkliflər alır və onları qəbul edir. Beləliklə, Nizami obrazını özünəməxsus bir tərzdə oynayır və böyük müvəffəqiyyət qazanır.

## “VİDA MAHNISINI BƏSTƏLƏYİR VƏ BİZİMLƏ, ŞƏHƏRLƏ VİDALAŞIR”

Onun keçdiyi zəngin yaradıcılıq yolu dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Yaradıcılıq fəaliyyətinə görə, SSRİ və Azərbaycanın ən yüksək ad və ordenlərinə layiq görülüb. Qırmızı Əmək Bayrağı Ordeni, Azərbaycan Respublikasının xalq artisti, SSRİ xalq artisti, Xalqlar Dostluğu Ordeni, ”Şöhrət” ordeni və ”İstiqlal” ordeni ilə təltif olunur. 1971-ci ildə haqqında ”Oxuyur Müslüm Maqomayev” adlı film-konsert çəkilmişdir. Bütün bunlarla yanaşı, müğənni SSRİ Qırmızı Əmək Bayrağı və Xalqlar Dostluğu ordenləri ilə təltif edilmiş, SSRİ-nin xalq artisti adını almışdır.

Böyük musiqiçinin sənət dünyasına musiqi duyumu yüksək olan dinləyicilər müraciət edərək, sözün əsl mənasında ölməz musiqiçi olan M.Maqomayevin ifasında gözəl musiqi əsərlərini dinləyirlər. Hər zaman yaddaşlarda, qəlblərdə yaşayan böyük musiqiçi böyük səs xəzinəsini bizlərə bəxş etişdir.

Müğənninin Prezident İlham Əliyevin 2020-ci il martın 12-də dünyaşöhrətli opera və estrada müğənnisi, SSRİ Xalq artisti Müslüm Maqomayevin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı Sərəncamına əsasən, Bakı şəhərinin ən gözəl və mənzərəli bir məkanında Müslüm Maqomayevin abidəsi ucaldılıb. Bura gələn hər bir kəs bu abidənin önündə ayaq saxlayıb qeyri-adi səsi ilə dünyaları fəth edən bir musiqiçinin dünyasına səyahət edərək, möhrünü vurduğu mahnıların sədasında uzaq bir dünyaya yol alırlar. Müslümün minbir rəngli musiqili dünyasına. ”Müslümün öz doğma torpağına bağlı olması onun yaradıcılığında da özünü göstərib. Azərbaycana, Odlar Yurduna, Xəzər dənizinə həsr edilmiş onun bəstələdiyi mahnılar nə qədər əzəmətlidirsə, o qədər də Vətənə sevgi ilə dolu olan mahnılardır”, - deyə Azərbaycan Prezidenti bildirib: ”Müslümün bəstələdiyi son mahnı isə çox kədərlidir. Biz bu mahnını Bakıda Filarmoniya zalında Müslümlə vida mərasimində eşitdik və çox təsirləndik, çox duyğulandıq. Çünki bilmirdik ki, bu mahnı yazılıb, Müslüm özü onu bəstələyib. O mahnının adı ”Əlvida, Bakı” idi və o anlayırdı ki, artıq Bakıya gələ bilməyəcək, ən sevimli şəhərə gələ bilməyəcək, bu küçələrdən keçə bilməyəcək, Bakıdakı dostları ilə görüşə bilməyəcək. Təsəvvür etmək çətindir ki, onun kimi həyatı sevən, onun kimi, necə deyərlər, dostlarla bir yerdə olmaq həvəsində olan adam, bax, bu vida mahnısını bəstələyir və bizimlə, şəhərlə vidalaşır. Eyni zamanda, bu, onu göstərir ki, hətta sağlamlığı o qədər də yaxşı olmayan vəziyyətdə onun istedadı, onun böyük sənətkar olması yenə də yerində idi”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Sərhəd Vətən, onu qoruyan sərhədçidir









***Sərhəd deyiləndə ilk ağıla gələn Vətən, Vətən deyiləndə isə ilk düşünülən sərhəddir. Çünki sərhəd Vətənin varlığını təsdiq edir. Onu əhatə edir, qoruyur ki, Vətən daim təhlükəsiz olsun.***

Sərhədlərimizi qoruyan sərhədçilər isə Vətənin ər, igid oğullarıdır. Onlar daim sərhədlərdədir. Nə gecələri, nə gündüzləri var. Nə isti, nə şaxta bilirlər. Havanın necə olmasına baxmayaraq onlar sərhəddə, öz mövqelərində, vəzifə başındadırlar. Çünki üzərlərində böyük bir məsuliyyət var: Vətəni qorumaq. Hər cür təhlükə ilə də üz-üzə qalırlar, lakin bir an belə gözlərinə yuxu getmir. Çünki onlara Vətəni göz bəbəyi kimi qorumaq tövsiyə olunur.

18 avqust, bax, elə məhz sərhədçilərin günüdür. Ümummilli Lider Heydər Əliyevin 16 avqust 2000-ci il tarixli Sərəncamı ilə 18 avqust Sərhəd Qoşunlarının şəxsi heyətinin peşə bayramı kimi təsis edilmişdir. Elə bu əlamətdar gün ərəfəsində böyük tarixi yol keçmiş sərhəd mühafizəsindən söhbət açmaq, bir əsrdən artıq yaşı olan bu sahənin inkişafına nəzər salmaq yerinə düşər.

### Tarixə qısa nəzər...

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və Milli Şura tərəfindən dövlət müstəqilliyinin elan edilməsindən sonra, 1919-cu ildə milli hökumətin qarşısında duran ən mühüm məsələlərdən biri gənc respublikanın hərbi qurumlarını yaratmaq, dövlət sərhədlərini möhkəmləndirmək, xarici və daxili təhdidlərdən ölkənin müdafiəsini təmin etmək istiqamətində təcili tədbirlər görməkdən ibarət idi. Odur ki, hökumətin qərarı ilə təsis edilən Hərbi Nazirliyin tərkibində ölkənin bir sıra güc strukturları, o cümlədən Sərhəd Qoşunları fəaliyyətə başlayır.

18 avqust 1919-cu il tarixində Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti ölkənin sərhədlərinin mühafizəsi haqqında qanun qəbul edir. Qanuna əsasən, Xalq Cümhuriyyəti Hərbi Nazirliyin tərkibində Azərbaycanın ilk Sərhəd Qoşunları dəstəsi yaradılır.

Sərhədlərin qorunması istiqamətində qısa zaman kəsiyində bir sıra xeyli işlər görən Azərbaycan hökuməti sonrakı illərdə yerlərdə dövlət və hakimiyyət strukturlarını möhkəmləndirməklə müstəqil respublikanın sərhədlərini hərtərəfli mühafizə etməyə qadir qüvvələr formalaşdırmağı qarşısına məqsəd qoymuşdu. Lakin cümhuriyyəti gözləyən acı tale bu arzuların həyata keçməsinə maneçilik yaratmaqda idi. Belə ki, daxili mübarizələr və bolşevik Rusiyasının 1920-ci ilin 27 aprel təcavüzü Azərbaycanın ilk müstəqil dövlətinin süqutuna gətirib çıxarmaqla, sərhəd mühafizə qüvvələrinin yaradılması işini də yarımçıq qoydu.

20-ci illərin əvvəllərində, Azərbaycan Xalq Sümhuriyyəti dövründə respublikanın təxminən 114 min kvadratkilometr ümumi ərazisi vardı. Onun 97,3 min kvadratkilometri mübahisəsiz, 16,6 min kvadratkilometri isə mübahisəli ərazilər hesab olunurdu. Müstəqilliyimizin itirilməsi həmin ərazilərin də daşnak-bolşevik ünsürlər tərəfindən bədnam qonşularımızın ixtiyarına keçməsi ilə nəticələndi. Beləliklə, həmin illərdə Azərbaycanın 29,8 min kvadratkilometr ərazisi itirildi.

Bu gün respublikamız İranla 765 kilometr, Türkiyə ilə 15 kilometr, Rusiya ilə 391 kilometr, Gürcüstanla 471 kilometr, Ermənistanla 1007 kilometr sərhədə malikdir. Su sərhədi isə 825 kiolometrdir.

Sovet İttifaqı dövründə artıq Sərhəd Xidməti Dövlət Təhlükəsizlik Komitəsinin bir strukturu kimi fəaliyyət göstərirdi. Azərbaycanın İran və Türkiyə ilə sərhədlərini sovet sərhədçiləri qorumuşlar. Şərq, şimal və qərb istiqamətlərində isə heç bir sərhəd infrastrukturu olmamışdır. Necə ki, həmin dövrdə Azərbaycandan əsgəri xidmətə gedənlər fəhlə batalyonlarına göndərilirdilər, eləcə də sərhədlərimizdə yerləşdirilmiş hərbi hissələrdə xidmət edənlər içərisində azərbaycanlılar demək olar ki, yox idi. Məqsəd isə aydın idi: azərbaycanlıların hərb sahəsində inkişaf etməsini əngəlləmək.

Bu proses XX əsrin 70-ci illərinin əvvəlinə qədər davam etdi və yalnız Ulu Öndər Heydər Əliyev Azərbaycan SSR-ə rəhbər seçiləndən sonra onun atdığı konkret addımlar nəticəsində müsbət istiqamətdə dəyişikliyə nail olundu, 1969-1982-ci illərdə milli hərbi kadrların hazırlanmasında çox böyük işlər görüldü.

### Sərhədlərimiz 90-cı illərdə

Həmin dövrdə Azərbaycan Respublikasının Sərhəd Qoşunları ciddi problemlərlə üzləşmişdi. İran İslam Respublikası və Türkiyə ilə dövlət sərhədində mövcud mühəndis-texniki qurğular dağıdılmış, hərbi texnika və digər maddi-texniki vasitələr yararsız hala salınmışdı. İxtisaslı kadrlara ciddi ehtiyac duyulurdu. Ermənistan Silahlı Qüvvələri tərəfindən ölkə ərazisinin 20 faizinin işğalı nəticəsində İran İslam Respublikası ilə dövlət sərhədinin 132 kilometr sahəsinə nəzarət etmək qeyri-mümkün olmuşdu. Narkotik vasitələrin qanunsuz dövriyyəsi, qeyri-leqal miqrasiya, insan alveri, radioaktiv maddələrin və kütləvi qırğın silahlarının komponentlərinin qanunsuz daşınması, qaçaqmalçılıq kimi cinayətlərlə məşğul olan transmilli kriminal qruplar Azərbaycan Respublikasının dövlət sərhədlərində yaranmış vəziyyətdən öz məqsədləri üçün yararlanmağa çalışırdılar. Bütün bu amillər dövlət sərhədinin pozulması hallarının sayının kəskin artmasına gətirib çıxarmışdı.

Həmçinin həmin illər ərzində dövlət sərhədinin mühafizəsi əsasən şəxsi heyətin fiziki imkanları və SSRİ dövründən qalmış köhnə mühəndis texniki qurğular və texniki vasitələr hesabına həyata keçirilmiş, şimal və şimal-qərb istiqamətində yaradılmaqda olan sərhəd məntəqələri uyğunlaşdırılmış binalarda, vaqonlarda yerləşdirilmişdi.

O zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Ulu Öndər Heydər Əliyevin iradəsi, qətiyyəti və nüfuzu sayəsində yalnız muxtar respublikadakı sərhəd infrastrukturları qorunub saxlanıldı və sovet sərhədçiləri hərbi texnika və vasitələri bütünlüklə təhvil verərək ölkəni tərk etdilər. Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycan sərhədçiləri zəruri sərhəd infrastrukturlarının yaradılması işlərinə faktiki olaraq sıfırdan başlamışlar.

### Sərhədlərimiz müstəqillik illərində

Müstəqillik əldə etdikdən və 1991-ci ilin 18 oktyabrında "Müstəqillik haqqında Konstitusiya Aktı"nı qəbul etdikdən sonra milli dövlət quruculuğunun bərpası işlərinə başlanıldı.

Ardı Səh. 6

# Sərhəd Vətən, onu qoruyan sərhədçidir





**Əvvəli-Səh-5**

Müstəqil dövlətin əsas dayağı olan silahlı qüvvələrin, o cümlədən Sərhəd Qoşunlarının yaradılması müstəqil dövlət quruculuğunun əsas tərkib hissələrindən idi. Odur ki, 1991-ci ilin dekabr ayının 9-da Azərbaycan Respublikasının Milli Şurası "Azərbaycan Respublikasının Dövlət Sərhədi haqqında" Qanun qəbul etdi. Həmin ilin dekabr ayının 16-da isə Azərbaycan Respublikasının Dövlət Sərhədini Mühafizə Komitəsi (DSMK) yaradıldı.

Müstəqilliyin ilk illərində ölkəmizin daxilindəki qeyri-sabitlik digər sahələrdə olduğu kimi, dövlət sərhədlərimizin mühafizəsi işinin təşkilinə də mənfi təsir edirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə gəldikdən sonra dövlətçiliyimizin tarixində yeni mərhələ başlandı, qısa zaman ərzində tənəzzülün yerini inkişaf mərhələsi aldı.

İctimai-siyasi, iqtisadi, mədəni həyatımızın bütün sahələrində olduğu kimi, dövlət sərhədlərimizin toxunulmazlığının təmin olunması işlərində də ciddi dönüş yarandı. Yuxarıda da qeyd etdiyimiz kimi, müstəqillik illərində sərhədlərin mühafizəsi sahəsində əldə edilmiş bütün uğur və nailiyyətlərin kökü hələ ötən əsrin 60-80-ci illərində xalqımızın böyük oğlu Heydər Əliyevin qəbul etdiyi taleyüklü qərarlarla sıx bağlıdır. Məlumdur ki, sovet dövründə Silahlı Qüvvələrdə, o cümlədən Sərhəd Qoşunlarında milli azlıqların xidməti inkişafına qeyri-rəsmi və süni maneələr yaradılırdı. Yalnız Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi nəticəsində DTK kimi qapalı bir qurumun tərkibində olan Sərhəd Qoşunlarında da azərbaycanlı zabitlərin xidməti inkişafına xüsusi diqqət yetirildi, milli kadrların yüksək vəzifələrə irəli çəkilmələri təmin olundu. 1967-ci ilə qədər milliyyətcə azərbaycanlı olan sərhədçilər sırasında yalnız 1 nəfər – Mustafa Nəsirov polkovnik rütbəsini aldığı halda, artıq 70-ci illərin sonunda bu rəqəm 10-a çatmışdı.

Milli silahlı qüvvələrin, o cümlədən də Sərhəd Qoşunlarının peşəkar zabit heyəti ilə komplektləşdirilməsinə ünvanlanmış müstəsna əhəmiyyətli addımlardan biri də 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması olub. Azərbaycanlıların hərbi peşələrə yiyələnməsini təmin etmək, milli hərbi kadrlar yetişdirmək məqsədi ilə təsis edilmiş məktəb milli ordu quruculuğu sahəsində böyük əhəmiyyətə malik olmuşdur.

1995-97-ci illərdə Azərbaycan-Rusiya sərhədində Xudat Sərhəd Dəstəsi və Şəki Əlahiddə Sərhəd Komendantlığı, Azərbaycan-Gürcüstan sərhədində isə Zaqatala və Şəmkir sərhəd dəstələri yaradılmış, Sərhəd Qoşunlarının formalaşması prosesi yüksək məsuliyyətlə aparılmışdır.

Üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə 1992-ci ilin avqust ayının 22-də Naxçıvan Sərhəd Dəstəsində qaldırılmasından, şimal və şimal-qərb sərhədlərimizdə ilkin zəruri infrastrukturların yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin yaradılmasına qədər bütün proseslər Ümummilli Liderin adı ilə bağlıdır. Belə ki, Ulu Öndər müstəqil dövlətimizin sərhədlərinin qorunması, Sərhəd Qoşunlarının yaradılaraq formalaşdırılması proseslərini daim nəzarətdə saxlamış, bu sahənin müasir tələblər səviyyəsinə qaldırılması üçün müvafiq qərarlar vermişdir. Nəticədə Azərbaycanın öz sərhədlərini müstəqil qorumağa qadir olması hamıya sübut edilmiş, dövlət sərhədinin mühafizəsində müasir texniki vasitələrin tətbiqi, dəniz sərhədlərinin mühafizəsi sisteminin və sərhəd aviasiyasının yaradılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması üçün zəruri baza yaradılmışdır.




### Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır

Ümummilli Lider Heydər Əliyevin siyasi və mənəvi varisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ölkəmizin sərhədçiləri ilə çoxsaylı görüşləri Dövlət Sərhəd Xidmətinin inkişafına, ölkəmizin sərhədlərinin mühafizəsinə göstərilən diqqət və qayğının əyani təzahürüdür. Elə bütün bunların nəticəsidir ki, ötən 20 ildən artıq dövrdə sərhəd infrastrukturlarının yaradılması, sərhədçilərin xidməti-döyüş şəraitinin yaxşılaşdırılması, peşə bacarığının, səfərbərlik və döyüş qabiliyyətinin artırılması, yeni texnika, avadanlıq və vasitələrlə təminat sahəsində məqsədyönlü tədbirlər həyata keçirilib.

"Hər bir ölkənin təhlükəsizliyi onun sərhədlərindən başlayır" deyən dövlətimizin başçısı onu da bildirir ki, Azərbaycanda ictimai-siyasi sabitlik, təhlükəsizlik, əmin-amanlıq ölkəmizin inkişafı üçün əsas şərtdir. Biz elə etməliyik ki, sərhədlərimiz tam şəkildə qorunsun. Dostlarımız üçün qapılar açıq, düşmənlər üçün bağlı olmalıdır. Sərhəd mühafizəsinin təşkili nəticəsində, Azərbaycanda daxili təhlükəsizliyin təmin edilməsi daha da yüksək səviyyədə təşkil olunur.

Bu sahədə "Azərbaycan Respublikası dövlət sərhədlərinin mühafizəsi sisteminin 2006-2010-cu illərdə texniki inkişafına dair Dövlət Proqramı"nın qəbul olunması və Proqramdan irəli gələn vəzifələrin icrasının sürətlə və keyfiyyətli şəkildə həyata keçirilməsi yüksək nəticələrin əldə edilməsinə şərait yaradıb.

Zabit heyətinin komplektləşdirilməsi ötən 20 il ərzində də xüsusi diqqət mərkəzində olub. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2007-ci il iyun ayının 12-də yaradılan Dövlət Sərhəd Xidmətinin Akademiyası ixtisaslı ali hərbi təhsilli zabit kadrlarının, komandir və qərargah zabitlərinin, hərbi elmi işçilərin hazırlanmasında mühüm rol oynamaqla, sərhədlərimizin daha mükəmməl şəkildə qorunmasını təmin edir.

Son illərdə yeni sərhəd infrastrukturlarının yaradılması, sərhədçilərin xidməti döyüş şəraitinin yaxşılaşdırılması, peşə bacarığının, səfərbərlik və döyüş qabiliyyətinin artırılması, yeni texnika, avadanlıq və vasitələrlə təminat sahəsində də mühüm tədbirlər görülmüşdür. Sərhəd dəstələrində videonəzarət sistemlərinin yaradılması, sərhəd zastavalarında müşahidə kameralarının quraşdırılması və görüntülərin dəstə qərargahına ötürülməsi nəticəsində, bilavasitə sərhəd xəttində xidmətin təşkilinə nəzarət gücləndirilmişdir.

### Sərhədçilərimiz Vətən müharibəsində

2020-ci ilin 44 günlük Vətən müharibəsi milli ordumuzun zabit və əsgərləri ilə yanaşı, sərhədçilərimizin də nəyə qadir olduğunu göstərdi. Belə ki, Vətən müharibəsi zamanı Müzəffər Ali Baş Komandanın Dövlət Sərhəd Xidmətinin qarşısında qoyduğu döyüş tapşırıqlarının uğurlu icrası üçün bütün qüvvə və vasitələr tam səfərbər edildi. Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin, Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının, Hadrut qəsəbəsinin və Şuşa şəhərinin azad olunmasında şücaət və qəhrəmanlıq göstərdilər.

Vətən müharibəsinin ilk günündən başlayaraq Azərbaycan sərhədçiləri tərəfindən Füzuli rayonu ərazisindəki təmas xəttindən Ermənistanla dövlət sərhədinədək böyük bir ərazi azad edildi, o cümlədən 24 saat ərzində 105 kilometr məsafədə ildırımsürətli hücumla düşmənə sarsıdıcı zərbələr endirildi. Qədim Xudafərin körpüsündə və dövlət sərhədlərimiz boyu müqəddəs torpaqlarımıza Azərbaycan bayrağı sancıldı, Ermənistanla dövlət sərhədində strateji yüksəkliklər azad olundu.

Dövlət Sərhəd Xidməti tərəfindən "Harop", "Quzğun" və "Hermes" pilotsuz uçuş aparatlarının peşəkarcasına tətbiqi nəticəsində düşmənin strateji əhəmiyyətli döyüş texnikaları, raket sistemləri, zenit-raket kompleksləri, tankları, zirehli döyüş maşınları və digər texnikası, komanda idarəetmə məntəqələri və çoxsaylı canlı qüvvəsi zərərsizləşdirildi, ümumilikdə 290 düşmən hədəfi məhv edildi.

DSX pilotları Abbas Qasımov və Xalid Gözəlov müharibənin ilk günü şəhidlik zirvəsinə ucaldılar. İkinci Vətən müharibəsində həmçinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin 47 hərbi qulluqçusu şəhid olub, 197 nəfər yaralanıb və ya müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Vətən müharibəsinin döyüş əməliyyatları zamanı rəşadət və şəxsi igidlik nümunələri göstərmiş 12 nəfər Azərbaycan sərhədçisi (onlardan 4 nəfər ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, 176 nəfəri müxtəlif ordenlərlə, 5 203 nəfəri isə müxtəlif medallarla təltif olunub. Müharibədən sonra işğaldan azad olunmuş ərazilərdə yeni zastavalar yaradılmışdır.

### Vətən sərhəd, sərhəd Vətəndir...

Bəli, sərhəd Vətəndir, Vətən də sərhəddir. Bu iki məfhum eyni fikri ifadə edir. Ona görə də sərhədçilərimiz sərhədlərimizi qorumaqla, Vətəni qoruyurlar. Təhlükəsizliyini onlara etibar edən milyonlarla insanı qoruyurlar. Bu insanlar arasında onların namusu olan nənələr, analar, bacılar, qızlar var. Bu insanlar arasında onlara əzmindən, ərlik və igidliyindən töhfə verən babalar, atalar var. Bu insanlar içərisində onların sabah Vətənə verəcəkləri övladları var. Elə bütün bunlara görə də qədim Azərbaycanın mərdlik, qəhrəmanlıq, rəşadət və namus simvolu olan oğulları 44 günlük müharibədə də olduğu kimi, hər zaman Vətənlə, onun şərəf və ləyaqəti ilə birgədir.

Bu oğullar gecə də, gündüz də oyaqdırlar. Gözlərini yuxu tuta bilməz. Onlara nə isti, nə də soyuq öz təsirini göstərə bilməz. Çünki bu oğulların ürəyi Vətən sevgisi ilə döyünür. Bu sevgi olan yerdə isə gecə aydınlıqdır, isti sərinlik, şaxta isə istilikdir. Çünki onların bir andı var: Vətən, namus, şərəf.

Bayramınız mübarək, əziz sərhədçilər! Bu gün Zəfərli ölkəmizdə üzüağ, alnıaçıq şəkildə Vətəni, onun ərazi bütövlüyünü, təhlükəsizliyini qoruyursunuz. Üzünüz hər zaman ağ, başınız dik, alnınız açıq olsun!

***Mətanət Məmmədova***



# Azərbaycan azad və demokratik seçki keçirmək ənənəsinə sadiqdir

***Azərbaycan xalqı o xalqlardandır ki, dövlət müstəqilliyini yüzlərlə oğul və qızını şəhid verməklə qazanıb. Bu baxımdan müstəqillik millətimiz üçün çox şirindir. Təəssüflər olsun ki, qanımız və canımız bahasına əldə etdiyimiz müstəqilliyimizin ilk illəri də asan keçməyib. Torpaqlarımızın erməni işğalına məruz qalması qəlbimizi göynədən, ürəyimizi yaralayan məqamlar idi. Bu ağrılı-acılı illər 30 il çəkdi. 30 il yurd həsrəti ilə yaşadıq, ağrılar-acılar çəkdik. Lakin sonda haqq-ədalət zəfər qazandı. Xalqımız Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməklə torpaqlarımızı erməni işğalından azad etməyə nail oldu.***

Bu gün işğaldan azad edilən ərazilərimiz rahat nəfəs alır, hər yerdə quruculuq-abadlıq, bərpa, tikinti işləri həyata keçirilir. Prezidentimiz İlham Əliyev demişkən, "biz Qarabağı cənnətə çevirəcəyik". Bəli, işğaldan azad edilən ərazilərimiz böyük tikinti, quruculuq meydanına çevrilib. İnsanlar öz doğma yurd-yuvalarına qayıdır və əvvəlki normal həyatlarını bərpa edirlər. Bu uğurlu proseslərin fonunda 30 ildən sonra ilk dəfə ölkəmizdə suverenliyi və ərazi bütövlüyü təmin olunmuş şəraitdə parlament seçkiləri keçiriləcək. Bu baxımdan ölkə əhalisi daha fəal və sevinclidir. Hər kəs seçkilərdən danışır və müxtəlif seçki yığıncaqlarına qatılmaqla seçki prosesinə öz töhfəsini verməyə çalışır. Azərbaycan cəmiyyəti seçkiləri qanunvericiliyin tələblərinə uyğun, yüksək səviyyədə keçirilməsi üçün zəngin təcrübəyə malikdir. Parlament seçkilərində də əhalinin xüsusi fəallıq göstərəcəyi şübhəsizdir. Eyni zamanda, dünyanın müxtəlif dövlətləri və nüfuzlu beynəlxalq təşkilatları da Azərbaycanda sentyabrın 1-də keçiriləcək parlament seçkilərinə xüsusi diqqət ayırırlar. Seçki prosesini 80 minə yaxın müşahidəçinin izləməyə hazırlaşması da təsdiq edir. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov bildirib ki, sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkilərdə iştirak edəcək müşahidəçilərin sayı 80 minə çatır. Məzahir Pənahovun sözlərinə görə, xarici müşahidəçilərin sayı isə 300-ə yaxındır. Mərkəzi Seçki Komissiyasının sədr müavini Rövzət Qasımov bildirib ki, MSK 26 ölkənin seçki qurumuna müşahidəçilik üçün dəvət göndərib. Bundan əlavə, MDB Parlamentlərarası Assambleyası (MDB PA) sentyabrın 1-də keçiriləcək Milli Məclisə növbədənkənar seçkiləri izləmək üçün müşahidəçilər qrupu formalaşdırır: "Hazırda MDB PA-ya üzv dövlətlərin parlamentlərinin nümayəndələrindən, Assambleyanın rəsmilərindən və MDB PA-nın Demokratiyanın İnkişafının Monitorinqi Beynəlxalq İnstitutunun ekspertlərindən müşahidəçilər qrupu yaradılır". ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu Azərbaycanda keçiriləcək 1 sentyabr parlament seçkilərində daha böyük heyətlə müşahidə aparmaq niyyətindədir. ATƏT/DTİHB Azərbaycanda parlament seçkilərini 300-dən çox müşahidəçi ilə uzunmüddətli missiyası üçün 30, qısamüddətli missiya üçün 280 müşahidəçi olmaqla, monitorinq aparacağını bildirib.

### Naxçıvan seçkilərə tam hazırdır

Seçki hazırlıqları Azərbaycanın bütün bölgələrində qanunvericiliyin tələbinə uyğun olaraq aparılır. Naxçıvan Muxtar Respublikasında seçici siyahıları tam şəkildə baş çatdırılıb, seçki məntəqələri fasiləsiz elektrik enerjisi və internetlə təmin olunması həyata keçirilib. Naxçıvan Muxtar Respublikasında 6 dairə üzrə 310 seçki məntəqəsi fəaliyyət göstərir. Seçicilərin sayı isə 280 minə yaxındır. Seçilər arasında maarifləndirmə işləri yüksək səviyyədə təşkil olunub. Bu da əhalinin seçki prosesi haqqında geniş və əhatəli bilgilər almalarına yeni imkanlar yaradır. Vaxtaşırı olaraq muxtar respublikada treninqlər də təşkil olunur ki, bu da seçki seçki komissiyaları üzvlərinin məlumatlılığının və peşəkarlıq səviyyəsinin artırılmasına yardımçı olur. Avqustun 13-dən növbədənkənar parlament seçkiləri ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 6 dairə seçki komissiyasında məntəqə seçki komissiyalarının sədrləri, katibləri və üzvləri üçün treninqlərə başlanılıb. Treninqlərdə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan slaydların və əyani vəsaitlərin köməyi ilə iştirakçılara səsvermə günü məntəqə seçki komissiyaları üzvlərinin rol və vəzifələri, seçki prosesində müstəsna hallar, səslərin hesablanmasına hazırlıq, seçki bülletenlərinin təsnifatı, səslərin hesablanması və yekun protokolun doldurulması, səsvermə prosesinə dair praktiki tapşırıqlar və digər məsələlər ilə bağlı ətraflı məlumatlar verilir. Təlim iştirakçılarına bununla bağlı yaddaş kitabçası təqdim edilib. Diskussiya şəklində təşkil olunan treninqlərdə məntəqə seçki komissiyalarının üzvlərini maraqlandıran suallar cavablandırılır. 4 saylı Naxçıvan şəhər seçki dairəsinin sədri Çingiz Həsənli bildirib ki, treninqlərdə dairə üzrə 42 məntəqədən 252 əməkdaş iştirak edəcək. Treninqlərin gedişini izləmək üçün xarici müşahidəçilər də dəvət olunub. Treninqlər gün ərzində iki dəfə olmaqla, 4 gün davam edəcək. 4 saylı Naxçıvan şəhər seçki dairəsi üzrə 44 min 727 seçici qeydə alınıb ki, onlardan 503-ü ilk dəfə səs verəcək. Dairənin 10, 12, 15 və 17 saylı məntəqələrində veb-kameraların quraşdırılması nəzərdə tutulub.



Dairə üzrə növbədənkənar parlament seçkiləri ilə əlaqədar deputatlığa 7 namizəd qeydə alınıb. Bunla yanaşı Naxçıvan MR Ali Məclisinin növbədənkənar sessiyasının iclasında Naxçıvan MSK-nın tərkibində dəyişiklik edilməsi barədə məsələ də müzakirə olunub. Naxçıvan MR Ali Məclis sədrinin müavin, Ali Məclis sədrinin səlahiyyətlərini icra edən Anar İbrahimov qeyd edib ki, Naxçıvan MR Mərkəzi Seçki Komissiyasının sonuncu tərkibi Ali Məclisin 2020-ci il 30 dekabr tarixli Qərarı ilə seçilib. Cari il iyulun 22-də keçirilmiş Mərkəzi Seçki Komissiyasının iclasında komissiyanın sədri Əliyev Əjdər Zahid oğlu öz ərizəsi əsasında sədr vəzifəsindən azad edilib. Bu il iyulun 24-də komissiya üzvü Əjdər Əliyev 1 sentyabr 2024-cü il tarixdə Ali Məclisə keçiriləcək növbədənkənar seçkilərə deputatlığa namizədliyini irəli sürüb. "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun müvafiq maddəsinə əsasən Ali Məclisin deputatlığına namizəd olduqda seçki komissiyası üzvünün səlahiyyətlərinə xitam verilir. Beləliklə, Əliyev Əjdər Zahid oğlu Mərkəzi Seçki Komissiyasının üzvü ola bilməz.

### 1 sentyabr növbəti tarixi gün olacaq

2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar seçki bülletenlərinin çapına başlanılıb. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov avqustun 15-də Komissiya üzvləri və Katibliyin təmsilçiləri ilə birlikdə çap prosesinin gedişi və bununla bağlı yaradılmış şəraitlə tanış olub. MSK sədri seçki bülletenlərinin əsas seçki sənədlərindən biri olduğunu və vətəndaşların öz konstitusion hüquqlarını reallaşdırmasında mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O diqqətə çatdırıb ki, seçki bülletenləri qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada çap edilib. Məzahir Pənahov həmçinin Seçki Məcəlləsinə əsasən seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblərin MSK-nın qərarı ilə müəyyən olunduğunu və Milli Məclisə seçkilərdə 6 516 567 seçki bülleteni hazırlanacağını bildirib. MSK sədri seçki bülletenlərinin çapı və aidiyyəti üzrə aşağı seçki komissiyalarına paylanılması ilə bağlı zəruri tövsiyələrini də diqqətə çatdırıb.

Məlumat üçün qeyd etmək lazımdır ki, seçki bülletenlərinin çap prosesi zəruri təhlükəsizliyin təmin edilməsi şərti ilə beynəlxalq təşkilatlar, seçki müşahidə missiyaları, media nümayəndələri və seçkilərin iştirakçısı olan bütün maraqlı subyektlər üçün tamamilə açıq həyata keçirilir. Bütün bu və digər görülən və həyata keçirilən işlər bir daha onu deməyə əsas verir ki, parlament seçkiləri yüksək seçici fəallığı ilə azad və demokratik şəraitdə baş tutacaq. Bununla Azərbaycan bir daha bəşəriyyətə hüquqi, demokratik dövlət quruculuğuna və azad, şəffaf seçki keçirmək ənənəsinə sadiq olduğunu nümayiş etdirəcək.

***İLHAM ƏLİYEV***

**Tariximizə Vətən müharibəsi kimi adı həkk olunan savaşda od-alov püskürən cəbhələrində ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən vətənin mərd oğulları - Azərbaycan ordusu tariximizin şanlı səhifəsini yazdı. Zəfər tariximiz yaşandı. 44 günlük müharibədə od-alovu içində vuruşan oğullarımız böyük qürur və dəyanət, şücaət və əzmkarlıq nümayiş etdirdilər. Əlbəttə ki, müharibə böyük itki, təlafat-dır. Xalqımız savaşı - bu tarixi yaşadı. Şəhidlərimiz də oldu, qazilərimiz də. Onları vətənə layiqli övlad kimi yetişdirən ANALARDIR.**

# Zəfər dastanımızı yazanlar - AMİL HÜSEYNOV




Dünyanın ən uca varlığı, müqqədəs, ülvi insanı olan ananın adının vətən ilə birgə çəkilməsi bu məfhumun həqiqətən də yaşadığımız həyatda müqayisə olunmaz məfhum olduğunu təsdiqləyir. Ana laylası ilə beşikdən boy atır, duaları ilə dünyamıza qədəm qoyuruq. Təmiz arzuların, müqəddəs hisslərin, uca arzuların ünvanı olan laylaların ilk səsindən daxili dünyamıza böyük duyğular, vətən, torpaq sevgisi hopur. "Göylər gurlamasın, sellər axmasın, küləklər əsməsin, şimşək çaxmasın, ana körpəsinə süd verən zaman". Bəli, anaya verilən dəyərdir, qiymətdir. Kimsə anaya toxunmasın, səsi ilə ananı dünyasından ayırmasın.





Gələcəyin vətənin keşiyində duran müsəlləh əsgərə beşik başından bu laylalar vasitəsi ilə vətəni qorumaq kimi müqəddəs bir hiss hopur. Çox keçmir ki, hər bir övlad ana borcunu verməyə, onun keşiyində durmağa çalışır. Hər ötən gündə saçına dən düşən analarımızın ağaran saçına qara tellər əkmək, onun üzünə salınan tale qırışlarına hamar yol salmaq üçün övlad düşünür. Bu yerdə şair Məmməd Arazın misraları yada düşür: "Hərdən inanmıram ölüm haqq ola. Ana dəfn oluna, gözəl qocala".

Bir ananın duyğulu dünyası ilə böyüyən övladları bir gün Anasını, ana diyarını, ana Vətənini qorumaq üçün silaha sarılaraq odun-alovun içinə atılanda onun ən uca varlığının Anasının şəhid anası olaraq dünyanın ən yüksəkdə duran adının daşıyıcısı olacağını düşünmürdü. Həsrətlə yollara boylanan, yol gözləyən ananın qanı ilə torpaq suvarmış oğlunun bir gün üçrəgli bayrağa bükülmüş cənazəsinə qucaq açması bir ana böyüklüyü, bir ana qəhrəmanlığıdır. "Ana səbri böyükdür", - deyirlər. Onun sarı siminə toxunsaq, buradan onun daxili dünyasında süzülən nisgili, kədəri və təzadlı dünyada sevinci aşıb-daşan bir bulaq kimi ətrafı bürüyər.

### SƏN VƏTƏNƏ ƏMANƏTSƏN, OĞUL!

Minbir əziyyətlə, gecəsini gündüzünə qatan analarımız vətənə oğul, düşmənə çəpər böyüdür. Gözünü qırpmadan belə, oğul, Vətən dardadır, sən vətənə əmanətsən - deyir, analar. Bu Azərbaycan anasının dilini ifadəsidir. Azərbaycan anası belə böyüklüyə sahibdir. Fərarilər böyütmür, ocağında vətənə oğul böyüdür. Əlbəttə ki, qeddiqamətin hər zaman məğrur tutan və övladlarını vətənpərvər ruhda böyüdən analarımızın həyat hekayəsi bir örnəkdir, nümunədir.

Orda bir evimiz bizlərə həsrət,
Yurddan didərginik, qonağıq, - dedin.
Yönümüz dağlara, düzlərə həsrət,
Getməsək ölərik, qınağıq, - dedin.

Bəli, minlərlə analarımız bədiiləşmiş bir portretindən nəzmə çəkilən bu misralarda onların siması görünür. Yurd yerinə həsrət qalmış analar, ata-babalarının məzarını ziyarət etməyə həsrət analar var. Bu analar vətənə Mübarizləri, Poladları, İlqarları daha kimləri bəxş etmədi. Adları şəhidlik zirvəsində ucalan mərd, igid oğullarımız adlarını əməlləri ilə təsdiqlədilər. MÜBARİZ OLAN, POLAD İRADƏLİ, VƏTƏNİNƏ İLQARLI OĞULLAR tariximizə ZƏFƏR yazdılar. Minlərlə oğullarımızın vətənin səsinə səs verməsi bu gün vətən həsrətində olan anaların öz yurd-yuvaların dönməsinə səbəb, 30 ilə qədər qubar bağlayan dərdlərə məlhəm oldular. Bu gün analar öz torpaqlarına yol alır və bu yolun mənzilinə.



### BİR İNSAN ÖMRÜNÜN TƏRCÜMEYİ-HALINA YAZILACAQ VƏRƏQLƏRİN 34 İLLİK TARİXİ

Bu gün şəhid oğullarımızın biri haqqında söz açacağıq. Avqustun isti bir günündə dünyaya gələn Amil Hüseynov. Bir kənd, bir mahalda dünyaya göz açan Amili bu gün bütün Azərbaycan tanıyır. 1986-cı ildə dünyaya göz açan Amilin sən demə, 34 illik bir yolu var imiş. Bir insan ömrünün tərcümeyi-halına yazılacaq vərəqlərin 34 illik tarixini yaza bildi. Qalan illərinə canını fəda edən şəhidimiz sabahın, gələcəyin dastanında öz adını həkk edib ki, onun haqqında yazılacaq hər bir söz bu ömür yolunun yarımçıq qalmadığından xəbər verəcəkdir. Füzulinin Əhmədalılar kəndində anadan olan Amil Rasim oğlu Hüseynov 1986-cı ilin avqustun 16-da dünyaya gəlib. Hər zaman ürəyi Vətən sevgisi ilə döyünən Amil hələ uşaq yaşlarından hərbçi olmaq istəyib. Məktəbdə oxuduğu müddətdə Amil idmanın karate növü ilə məşğul olub. Respublikada və xaricdə keçirilən yarışlarda iştirak edib və yüksək nailiyyətlər qazanıb, respublika çempionu olub. Gürcüstanda iştirak etdiyi beynəlxalq yarışda 1-ci yerə çıxıb. Amilin hərbi xidmətə olan marağı, Vətənə sevgisi onu öz arzusunun ardınca aparıb. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2010-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Kəşfiyyatçımız 9 il vətənə misilsiz xidmət göstərib. 2010-cu ildən Azərbaycan Respublikasının Daxili Qoşunlarında xidmətə başlayıb. Daha sonra Milli Ordumuzun sıralarında kəşfiyyatçı kimi fəaliyyətini davam etdirib. 2013-cü ildə Türkiyədə kəşfiyyatçı təlim kursu keçib.

Vətən müharibəsinin iştirakçısı olan Amil Hüseynov Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə xüsusi şücaəti ilə seçilib. Vətən Müharibəsi zamanı Füzuli istiqamətində gedən ən ağır döyüşlərdə böyük şücaət və igidlik göstərib. Amil Hüseynov oktyabrın 10-da Füzulidə şəhid olub. Füzuli rayonunun Əhmədalılar kəndində dəfn edilib.

Şəhid Amil ölümündən sonra Prezident İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib. Şəhidin atası Rasim Hüseynov neçə-neçə şəhid atası kimi başını dik tutub, oğlu ilə fəxr edir. Oğlu Zəfərimizin yazılmasında rolu olan oğullardandır. "Şükür ki, torpaqlarımız azad olundu. Şəhidlərin qanı yerdə qalmadı" – deyir ata. Vətən üçün bundan fəxarətli nə ola bilər ki.

### ONDAN TƏK XATİRƏ UĞRUNDA CANINDAN KEÇDİYİ BAYRAQDIR

Təzəcə ailə həyatı qurmuş Amilin həyat yoldaşına ona Vətənin rəmzi olan üçrəncli bayraq qalıb. Həyat yoldaşı Xalisə Məmmədova verdiyi müsahibələrin birində deyir: "Bizim ailə həyatımız çox qısa çəkdi. Yenicə ailə qurmuşduq. Ancaq mən fəxr edirəm ki, bu cür şərəfli yolda şəhid olmuş insanın həyat yoldaşıyam. Amil həqiqətən fəxr ediləsi bir həyat yoldaşı, insan idi. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Düzdür, ondan mənə bir nişanə qalmasa da, tək təsəllim onun məqamıdır. Ondan mənə tək xatirə isə uğrunda canından keçdiyi bayraqdır".

Bu gün onun xatirəsi xalqın qəlbində yaşayır. Dövlətimiz və xalqımız şəhidin adını uca tutur. Şərəfli ömür yolu ilə Zəfər dastanımızı yazanlardan olan Amil neçə-neçə yetişən gəncimizə həyat yolu, məslək, əqidəsi ilə bir məktəbdir. Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ucuz penisillinin bahalı nəsli – antibiotiklər



***Bir neçə gün öncə Bərdədə 4 yaşlı uşaq evdə vurulan iynədən sonra vəfat edib. Rayon sakini, 2020-ci il təvəllüdlü Əli Bayramov valideynləri tərəfindən xəstəxanaya yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq, Əli Bayramov xəstəxanada ölüb. Müəyyən olunub ki, azyaşlıya qızdırmaya görə naməlum adda iynə vurulub. Həkimlər ehtimal edir ki, körpə antibiotikin verdiyi şok effektindən dünyasını dəyişib.***

Antibiotik təyinatı səbəbindən ölüm hallarının baş verməsi statistikasında ən yüksək rəqəm 2019-cu ilə aiddir. Həmin il dünyada 1,2 milyondan çox insan antibiotiklərə qarşı müqavimət səbəbindən həyatını itirib. Bir çox hallarda ölümcül xəstəliklərlə mübarizədə əvəzsiz vasitə hesab edilən antibiotiklər həkim təyinatı olmadan korkoranə alınar və qəbul edilərsə insan orqanizminə faydadan çox zərər verir.

## Dövrünün xilaskarı – Penisillin

Antibiotiklərin bir çox növü var, təyinatı orqanizmdəki bakteriya infeksiyasını müalicə etməkdir. Antibiotiklərin əcdadı Penisillin 1929-cu ildə Aleksandr Fleminq tərəfindən




kəşf edilib. 1940-cı illərdə kommersiya miqyasında satışa buraxılanda insanlar ona möcüzə kimi baxırdı, çünki infeksiya bir çox insanın ölümünə səbəb olmuşdu. Penisillinin kəşfi dünya təbabətini kökündən dəyişdi. Bu ilk antibiotik idi. Onsuz bir çox xəstəliklər əlacsız olardı və insan ömrünün orta uzunluğu müasir dövrdəkindən xeyli aşağı olardı. İkinci Dünya Müharibəsində milyonlarla əsgərin həyatı məhz penisillinə görə xilas edildi.

İnfeksiyanın yerinə və növünə görə fərqli antibiotik təyin edilir. Məsələn daxilə qəbulu ya damar yolu, ya ağızdan olur, eləcə də qulaq və gözə damladaraq, həmçinin krem halında dəriyə çəkilərək antibiotik qəbul etmək mümkündür.

Tərkibində 1 qram tseftraksion preparatı olan Rusiya istehsalı antibiotiklərin bir ədədi 80 qəpikdir, amma eyniadlı firma istehsalı antibiotikin içində eyni miqdarda olan ədədi ən ucuz halda 3-4 AZN-dən başlayır. 10 günlük antibiotik müalicəsi ənənəvi yolla 8 manat edirsə firma preparatları ilə bu məbləğ ən yaxşı halda 3-4 dəfə artır. İki seçim arasındakı fərq odur ki əgər xəstə ənənəvi antibiotiklə normal halda 5 günə sağalmalıdırsa firma antibiotikləri bu prosesi tezləşdirir. Xəstə düşünür ki ənənəvi dərmanın gücü çatmadı, amma firma dərmanı xəstəliyə qalib gəldi. Lakin sağalma müddətinin tezləşdirilməsi orqanizm üçün zərərlidir.





## Qızdırma zamanı antibiotik təyin edilərsə...

Antibiotikin ciddi təsirlərini diqqətdə saxlamaq, təyinatsız qəbulunun qarşısını almaq və insanları onunla bağlı məlumatlandırmaq üçün 2012-ci ildən bəri 18 noyabr tarixi antibiotik günü kimi qeyd edilir. Adi qrip və soyuqdəymədə belə istifadə etməyi adət halına çevirən insanları məlumatlandırmaq üçün antibiotiklərin insan orqanizminə verdiyi zərərlər barədə elmi konfranslar keçirilir, məqalələr hazırlanır. Antiobiotik təyinatına ehtiyac olan xəstəliklərdə düzgün istifadə edilməyən bu preparat lazımı dozada istifadə edilmədiyi təqdirdə ciddi fəsadlara yol açır.

Qızdırma zamanı antibiotiklə müalicə yolverilməzdir, amma o qızdırmaya səbəb hər hansı bir infeksiyadırsa antibiotik təyin edilə bilər. Antibiotik qəbulunu yalnız doza çərçivəsində etmək lazımdır, əks halda yüksək doza bədəndə antibiotikə müqavimət yaradaraq təsirini minimuma endirər.

Doğrudur, penisillin kəşf edildikdən illər sonra fərqli adlarda, fərqli markalarda bir çox antibiotik istehsal edildi. Tibb dünyası yeni antibiotiklər istehsal etmək məcburiyyətindədir, çünki bakteriyalar həddindən artıq ağıllıdır. Bakteriayalar özlərində antibiotiklərə qarşı müqavimət yaradırlar. Cəmiyyətdə antibiotik istifadəsi nə qədər çoxdursa müqavimət də bir o qədər artıqdır. Xüsusilə də səhv və lazımsız zamanlarda istifadə edilən antibiotik buna səbəb olur.

## Hər 3 pasiyentdən birinə təyin edilir

Ölkəmizdə hər 3 reseptdən birinə antibiotik yazılır, həkimlərin əksəriyyəti təyin etdikdə pasiyentdən indiyədək neçə doza antibiotik qəbul etdiyini soruşmur. Antibiotiklərin nə zaman, hansı xəstəlikdə, neçə doza və nə qədər müddətə istifadə edilməsi çox vacib məsələdir, əks halda fəsad yarada bilər və getdikcə antibiotikə qarşı müqavimətə səbəb ola bilər ki, bu da xəstəliklərin tüğyan eləməsinə təkan yaradar. Həkim antibiotik təyin edəndə pasiyentinə qəbul qaydalarının vacibliyini, kor-korana qəbul edilməməsini başa salmalıdır. Eyni zamanda hər həkim antibiotik yazdığı xəstənin daha əvvəllər antibiotik qəbul edib-etməməsini öyrənməlidir.

Antibiotik təyin edilində öncə yoxlamaq üçün test edilməlidir, xəstəyə çox az miqdarda tətbiq edərək orqanizmə təsiri yoxlanmalıdır. Antibiotiklər sağaltdıqları qədər zərər də verə bilir. Xüsusilə də bağırsaq mikroflorasını məhv edir, göbələk infeksiyasına səbəb olur. Allergik reaksiyalar verə bilir, qaraciyərə və böyrəyə zərər verir. Ən vacib təsiri isə orqanizmin təbii maddələr mübadiləsini pozaraq həzm sistemini alt-üst etməsidir. Lazımsız və uyğunsuz təyin edilən antibiotiklər xəstəliklə mübarizə etmir, əksinə orqanizmin antibiotiklərə müqavimətini artırır.

Hazırda dünyada təxminən 200 növ antibiotik istifadə olunur. Tətbiq edildiyi əksər hallarda antibiotik gərəksiz olur. Antibiotik təyin edilən hər 3 pasiyentdən birinin buna ehtiyacı yoxdur, antibiotik təyin edilənlərin demək olar ki, 30 faizi onu düzgün istifadə etmir. Dünyada ən çox antibiotik istehsal və istifadə edən Çində hər il 80 min insan antibiotikdən istifadə zamanı ölür.

Hər il dünyada 25 min insan antibiotiklərdən düzgün istifadə etmədiyi üçün ölür. Səhv istifadəsi bağırsaqlara, beyinə, ürəyə, böyrək və qaraciyərə pis təsir edir. Bir çox pediatr yuxarı tənəffüs yollarının infeksiyasına antibiotik təyin edir, bu Avropa ölkələrində qətiyyən belə deyil. Bizdə aptekdən reseptsiz almaq olur, amma Avropada yox.

## Həkimsiz əsla!

Hər bir xəstəliyin klinik gedişindən asılı olaraq antibiotikə ehtiyac olub-olmaması sualı ortaya çıxır və bu qərarı ancaq həkim verməlidir. Xəstəlik törədicilər müxtəlif antibiotiklərə həssas olurlar. Həssaslığı isə laborator müayinədən sonra dəqiqləşdirmək olur.Yəni gözü yumulu antibiotik təyini düzgün deyil. Virus xəstəliklərində isə ümumiyyətlə antibiotik təyin olunmur. Təəssüf ki, bir az qızdırma olan kimi valideynlər uşağa özləri antibiotik verirlər. Buna ehtiyac olmadığına görə lazımsız dərman qəbulunun fəsadları qaçılmaz olur.

Peditr Mahir Əsədov deyir ki, əgər valideyn deyirsə uşağın boğazı ağrıyır, bu qətiyyən angina anlamını vermir: “Çünki boğaz ağrısı adi soyuqdəymədən də ola bilər və bu halda antibiotikə ehtiyac yoxdur. Anginalarda isə antibiotik təyin olunur və bu qərarı yalniz həkim verir. Bəzi antibiotiklərin təyinatında yaş limiti var. Yəni bəziləri 8, bəziləri isə 14 yaşa qədər təyin olunmur. Hamilə və süd verən qadınlarda antibiotik təyinatında çox ehtiyatli olmaq lazımdı. Bu halda da qərarı yalnız həkim verir. Bu məsələdə aptek işçilərinin də günahkar olduğunu etiraf etmək lazımdır”.

Qeyd edək ki, bir qrup antibiotiklərdən ev şəraitində istifadə etmək olmaz. Ümumiyyətlə, antibiotiklərdən özbaşına istifadə qətiyyən yolverilməzdir. Həkim bizə bu halda yaranacaq fəsadları da dedi: “Birinci, allergik reaksiyalar ola bilər. Bəzən hətta “anfilaktik şok” deyilən çox təhlükəli fəsad verir. Bu hal bəzən ölümlə nəticələnir. Biz bunun acı nəticəsini ötən il anasının iynəsindən şoka girib ölən gənc oğlanda da gördük.

İkinci, disbakterioz-mədə-bağirsaq pozğunluqları yarada bilər. Bu problem son vaxtlar çox geniş yayılıb. Üçüncü, kandidozgöbələk xəstəliyi. Bu problem də “özfəaliyyətin” nəticəsində yaranır. Dördüncü, bəzi antibiotiklər qulağa, qara ciyərə və böyrəyə toksiki təsir göstərir. Yəni bu orqanları sıradan çıxarır. Beşinci, qanda hemoliz yaradırlar, yeni qanı parçalayırlar. Bu kimi fəsadların çox sadalamaq olar. Bütün xoşagəlməz hallardan sığortalanmaq üçün həkim təyinatı olmadan antibiotklərdən istifadə etməmək məsləhətdir”.

**Lalə Mehralı**

# Ermənistan və hiyləgər tülkü





***Təmsil Azərbaycan ədəbiyyatında tez-tez rast gəlinən janrlardandır. Bundan istifadədə yazıçıların, şairlərin əsas məqsədi oxucuya məhz heyvanların timsalında həyat hekayələrini anlatmaq, maarifləndirmək və bir az da dərinə getsək tərbiyyələndirməkdir. Bir ayı və bir şirin ovladıqları dovşanın kimə qismət olduğuna aydınlıq gətirən təmsili də yəqin ki, çöxunuz oxumusunuz. Qazanan kim olur, hiyləgər və şələquyruq tülkü. Bunu bildinizsə, keçək real həyata…***



Dünyada gedən savaşların ikisi barədə danışacağıq, Rusiya-Ukrayna və İsrail-İran. Bu gün hər iki cütlük bir-birini yer üzündən silmək üçün bütün imkanlarını ortaya qoyublar. Amma bunu necə edə biləcəklərini, qısaca desək, özləri də bilmirlər. Yəni müharibə aparmağı, döyük sursatı əldə etməyi, öldürməyi bilirlər, amma işi sona çatdırmağı bacarmırlar. Bəs bundan qazanan kimdir? Əlbəttə, bu müharibəni, qarşıdurmanı, münaqişəni tərtib edənlər. Bu gün həmin rolun mahir ifaçısı Qərb imperializmidir. ABŞ-ın rəhbərliyi, çətiri altında toplanan varlı Avropa ölkələri, transmilli şirkətlər, dünyanı idarə edən, dünya ölkələrini zorla özünün maliyyə zəncirindən asılı vəziyyətə salan iri banklar müharibədən gələn milyardlar, trilyonlar hesabına daha da varlanırlar. Məqsəd kiminsə torpağını alıb, kiməsə vermək deyil, söhbət süni şəkildə tərtib edilən savaşlardan gələn gəlirlərdir.

Rusiya-Ukrayna savaşı iki slavyan xalqı arasında gedir, halbuki qərblilərin postsovet məkanına ayaq basdığı günə qədər hər şey çox gözəl idi. Əvvəlcə Ukrayna Qərbin siyasi işğalına məruz qaldı, "demokratiya" dəyənəyi ilə silahlandırılmış zümrəni əvvəlcə hakimiyyətə qarşı qaldırdılar, sonra isə istiqaməti ukraynalılarla "ət-dırnaq" münasibətində olan Rusiyaya qarşı yönləndirdilər. Savaş texnoloqları məsələni kiçik etirazlardan müharibə ritorikasına qədər çəkib gərirə bildilər. Savaş üçün qığılcım da tapıldı və qardaş qardaşı məhv etməyə başladı. 2014-cü ildən başlanan proses böyük müharibəyə qədər uzadıldı, yumruq davası ballistik raketlərin uçuşduğu, hər gün minlərlə insanın məhv edildiyi, milyardlarla vəsaitin itirildiyi savaşla əvəzləndi. Bu gün Rusiya-Ukrayna savaşı "Qorbi düyünü" kimi müəmmalı fazaya qədəm qoyub, yəni "pat" vəziyyəti yaranıb.

### İran və İsrail – sərhədsiz müharibə

İranla İsrail arasında savaşın dəqiq tarixi bəlli deyil. Amma buna nəsillərin davası, müharibəsi də demək olar. Hakimiyyətlər, hətta ideologiyalar dəyişsə də iki dövlət arasında dava bir an belə səngimir, əksinə daha da şiddətlənir. İran İsraili, İsrail də İranı xəritədən silmək istəyir. Amma birbirindən uzaqda yerləşdikləri üçün arzularına çata bilmirlər. Ümid qalır proksi, yəni ölkə ərazisindən kənarda, düşmən ölkənin isə sərhəddi yaxınlığındakı qüvvələrə. İran İsrailin burnunun ucunda mövqeləmnmiş HƏMAS və "Hizbullah" qruplaşmalarından öz məqsədləri üçün istifadə etməsi heç kim sirr deyil. İran sünni və şiələrdən ibarət iki qrupu bir araya gətirbilməsinin sirri də onların hər ikisinin İsrailə İran kimi düşmən kəsilməsidir. İranın raketləri İsrailə qədər çatmasa da proksi qüvvələrin səsi hətta bu ölkənin lap yaxınlığından gəlir.

"Tehran bütün ölkələrlə əməkdaşlığı alqışlayır, lakin təzyiqlərə boyun əyməyəcək və beynəlxalq müddəalara uyğun olaraq təcavüzkarlara cavab vermək hüququna malikdir". Bunu İran prezidenti Məsud Pezeşkian Almaniya kansleri Olaf Şolzla telefon danışığı zamanı deyib: "Bütün ölkələrlə qarşılıqlı əlaqələrin inkişafını alqışlayaraq və problemlərin danışıqlar yolu ilə həllinin vacibliyini vurğulayaraq, İran heç vaxt təzyiqlərə, sanksiyalara, məcburiyyətlərə boyun əyməyəcək. Beynəlxalq müddəalara uyğun olaraq, təcavüzkarlara cavab verməyi də İran öz haqqı hesab edir".

Pezeşkian əlavə edib ki, ölkəsinin prioritetlərindən biri Yaxın Şərqdə sülh və sabitliyin yaradılmasıdır Fələstin Siyasi Bürosunun radikal HƏMAS hərəkatının rəhbəri İsmayıl Haniyə və Hizbullahın Beyrutdakı hərbi qanadının komandirlərindən Fuad Şükrün İsrailin endirdiyi zərbə nəticəsində öldürülməsi cavabsız qalmayacaq. İsrail Haniyənin qətlində iştirakını rəsmən təkzib və ya təsdiqləməsə də sifarişin Təl-Əvivdən gəldiyinə əminlik var. Ağ Evin milli təhlükəsizlik üzrə müşaviri Con Kirbi deyib ki, Birləşmiş Ştatlar yaxın bir neçə gün ərzində İranın və onun Yaxın Şərqdəki dəstəklədiyi qrupların İsrailə hücum edə biləcəyinə inanır.

### İran-İsrail münaqişəsi və Cənubi Qafqaz

İran və İsrail arasındakı gərgin münasibətləri və Yaxın Şərqdəki ümumən çətin geosiyasi vəziyyəti təhlil edərkən nəzərə almaq lazımdır ki, Tehran da Tel-Əvivlə münaqişə olacağı təqdirdə bütün bunların ölkəyə mənfi təsir göstərə biləcəyini yaxşı bilir. İran üçün kifayət qədər ciddi problemlərə gətirib çıxaracaq Cənubi Qafqaz kimi qonşu region da nəzərə almaq lazımdır. İranla İsrail arasında mümkün toqquşmanın və ya birbaşa qarşıdurmanın Cənubi Qafqaz ölkələrinə göstərə biləcəyi təsirlər az deyil. Yumşaq desək, Cənubi Qafqaz regionunda heç də hamı İran İslam Respublikası ilə eyni mövqeyə və münasibətə malik deyil. Ermənistan-İran münasibətlərinə gəlincə, burada görünənlərlə, əsl niyyət arasında kifayət qədər böyük fərqlər var. Çünki, Ermənistan İrana qarşı daha çox imitasiya siyasəti yürüdür. Qərbin əlində oyuncaq olan, onun sifarişi ilə "böyük qardaş"ı Rusiyaya qarşı "buynuz" göstərən İrəvan Qərbin düşməni olan İranla niyə dostluq etsin ki? Bu paradoksa kimsə inanırmı? İran Ermənistanın dostudursa, məntiqlə, İrəvanın böyük "qardaş" və "bacıları" ilə də Tehran dost olmalı idi. Amma birbaşa düşməndirlər, həm də bir-birini məhv etməyə hazırdırlar. Görünür, burada həm İran, həm də Ermənistan manipulyasiya mexanizmini işə salıblar. Bir-birinə yalan sırıdıqlarından hər iki dövlətin xəbəri var, hələlik susmağa üstünlük verirlər.

Ermənistan cidd-cəhdlə İsrail-İran münasibətlərində Azərbaycanı birincinin dostu, ikincinin isə düşməni kimi təqdim etməyə çalışır. Bəzən ermənilər xristian qardaşlarının mətbuat dəstəyi ilə buna nail ola bilirlər. Düzdür, dövlətlər arasında münasibətlər ermənilərin düşündüyü kimi kritik deyil, amma İrandakı bəzi qüvvələr bu yalnış siyasətə şərik kimi görünməyə çalışırlar. Əlbəttə bütün bunların Ermənistan tərəfindən tərtib olunduğuna inam çox azdır. Çünki, belə bir işin altına girmək İrəvanın nə çəkisinə, nə də ölçülərinə mütənasib deyil. Olsa-olsa Ermənistan yalnız suyu bulandıra bilər, vəssalam.

Son hadisələrdə də Ermənistan İsrailin gözlənilən müharibə səbəbindən vətəndaşlarının Azərbaycan və Gürcüstana getməməyi məsləhət görməsi, sanki, Ermənilərin əlinə fürsət verib. Anındaca bütün erməni mediası ayağa qalxıb, Azərbaycanda guya İsrail hərbi bazasının olduğuna dair "faktlar" ortaya qoymağa başlayıblar. Mənbə kimi də, dediyimiz kimi, İsrailin öz vətəndaşlarına, o cümlədən hərbi qulluqçularına çağırış etməsi göstərilir. Belə çıxır ki, İranın xüsusi xidmət orqanları ya yoxdur, ya da zəif işləyir ki, ermənilərə möhtac qalıblar. Əslində isə İsrailin Azərbaycanda hər hansı hərbi bazasının olmadığına dair İranın əlində də dəqiq məlumatlar var.

Belə yerdə ayı ilə şirin ovladıqları dovşanın niyə tülküyə qismət olmasını dab u siyasətdə axtarmaq lazımdır. Ermənistan kimi tülkü və fürsətcil dövlətciklər həmişə başqalarından qalma artıqlara sahiblənmək üçün böyüklərin bir-biri ilə didişib yorulmasını istəyirlər. Rusiya Ukrayna ilə müharibədən o qədər yorulub ki, az qala məğlub etdiyi ölkənin ani həmləsinə tab gətirə, müqavimət göstərə bilmir. Ukrayna da verdiyi itkilərə rəğmən güclə ayaq üstə durur, düşməsi üçün dayağını itirməsi kifayətdir. Rusiya bir tərəfdən sanksiyalardan, digər tərəfdən isə 903 günlük müharibə səbəbindən taqətdən düşmək üzrədir. Bəs bu döyüşdə qazanan kim olacaq? Bəlli ki, nə Ukrayna, nə də Rusiya olacaq, qazanan haldan düşmüş tərəflərin qanını sormağa hazırlaşan Qərb olacaq.

Bəs İran-İsrail cəbhəsindən nə gözlənilir? Qalib kim olacaq? Sanksiyalardan yorulmuş, iqtisadiyyatı çökmüş, dünyadan təcrid edilmiş İran, yoxsa Qərb dünyasının Yaxın Şərqdəki təmsilçisi, əslində isə "qoca qitə" adlı aysberqin Fələstində görünən zirvəsi – İsrail? İran Rusiya kimi böyük müharibəyə çəkilir. "Gözü çıxmış qardaşından dərs götürməyən" Tehran baş verənləri anlamaqda acizdir. Çünki, dalada sıxışdırılıb, çarəsiz durumdadır. Oyunda olmasa məhvə məhkumdur, müharibə isə onu qətrə-qətrə tükəndirir. İslam dünyasında liderlik mübarizəsi hadisələrə fərqli tərəfdən yanaşmağa imkan vermir. Müharibədən çəkilməməyin, yayınmamağın bir əsas səbəbi də budur. İran proksi müharibələri, ərəb ölkələrinin himayədarı olmağı dayandırsa onun sonu gələr. Karbohidrogen ehtiyatlarının satışından əldə etdiyi milyardları Yaxın Şərqdə 100 ilə yaxın davam edən və hələ də sonu görünməyən münaqişələrə sərf edir. Əhalisi isə talenin hökmünə buraxılıb.

### Erməni Marqaryan nə deyir?

Özünü politoloq adlandıran Marqaryanın sözlərinə görə, Cənubi Qafqaz regionunda da kifayət qədər ciddi risklər və problemlər yarana bilər. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun İrana son səfəri və Azərbaycanda aparılan maraqlı müzakirələr daha çox gündəmdədir. "Əlbəttə, azərbaycanlı ekspertlər heç bir aydın mövqe və ya fikir bildirmirlər, lakin onlar eyham vururlar ki, istənilən halda ölkə Prezidenti İlham Əliyev "bütün yumurtanı bir səbətə yığacaq" siyasətçi deyil. Bunu nəzərə almaq lazımdır", –Marqaryan vurğulayıb.

İran və İsrail arasında birbaşa qarşıdurmanın Cənubi Qafqaza hansı potensial təsir göstərə biləcəyi sualına gəlincə, regional planda Tehran üçün mümkün risklər var. Bu təhlükələr əlbəttə, Azərbaycandan yox, "kiçik bacısı" Ermənistandan gələcəyi şübhəsizdir. Çünki, İrəvan ABŞ ordusunu artıq müxtəlif adlar altında öz ərazisinə yerləşdirib. Amerika ordusunun İran sərhədində zühr etməsi daha çox İranı narahat etməlidir. İrəvan isə bu hadisəyə fərqli mövqedən şərh verməklə İranın diqqətini sanki yayındırmaq istəyir. Bəs görəsən, ABŞ ordusunun bölmələri İrana niyə bu qədər yaxın olmaq istəyir? Ermənistanı Azərbaycan tərəfdən olmayacaq hücumdan qorumaq, yoxsa İrana qarşı hərbi baza yaratmaq üçün? Düşündürücü suallardır

**V.VƏLİYEV**

RAKURS

# Bozlaşan Azərbaycandan yaşıllaşan Azərbaycana necə keçməli?

**Son 30 ildə ölkə meşələrinin və yaşıllıq sahələrinin həcmi azalıb, paytaxtda isə əhalinin sayı 2 dəfə artsa da, yaşıllıq sahəsi 2 dəfə azalıb**

***Əkinçilik və maldarlıq formalaşmamışdan əvvəl dünyanın quru ərazisində meşələrin payı 56 faiz təşkil edirdi. Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb. Son illərdə dünyanın ən böyük meşə sahələrində (Amazon, Sibir, Avstraliya, Kaliforniya və s) baş verən yanğınlarda çox nəhəng meşəliklər məhv oldu. Getdikcə planetimizdə yaşıllıq sahələrinin payı azalır ki, bu da çox ciddi ekoloji böhranlara gətirib çıxara bilər.***



XVIII-XIX əsrlərdə indiki Azərbaycan ərazisinin 35%-i meşə ilə örtülü olub. Hazırda bu göstərici rəsmi olaraq 11,4 faiz təşkil edir, lakin realda maksimum 10 faiz olduğu ehtomal edilir. Bu rəqəm Rusiyada 44%, Latviyada 41%, Gürcüstanda 39% təşkil edir. Göründüyü kimi, biz meşə sahəsinin çox az olduğu ölkələrdən sayılırıq.










Son 30 ildə ölkəmizin meşə təsərrüfatı xeyli itki verib. Belə ki, 90-cı illərin əvvəllərindən başlayaraq uzun müddət regionlarda təbii qazla təminat olmadığından meşələrin, yaşıllıqların qırılması baş verirdi. Bundan başqa, Ermənistan tərəfindən işğal olunan Qarabağ zonasında meşələrin çoxu qırılıb satılırdı. Qeyd etmək lazımdır ki, son 30 il ərzində əhali və ağac emalı müəssisələri tərəfindən meşə ehtiyatlarına təzyiqin arması müşahidə olunur. Respublikanın mərkəzində sipər rolunu oynayan Kürqırağı Tuqay meşələrinin 80 %-i məhv olub; dağ və dağətəyi meşələr sistemsiz qırılıb sıradan çıxır. Təbii bərpa edilmə imkanları ciddi surətdə məhdudlaşır (qanunsuz olaraq mal-qara otarılması, normadan artıq antropogen təsir) və nəticədə Azərbaycanın əvəzedilməz yaşıl örtüyünün gələcəyi itirilmə təhlükəsi qarşısında qalır.

Bölgələrdə, xüsusilə də kənd yerlərində heyvanların otarılması zamanı ana təbiətə, əsasən də meşələrə ciddi zərər dəyir. Meşələrdə otarılan heyvanlar yerdən qalxan kiçik pöhrələri yeyirlər, nəticədə meşələrin yenilənməsi baş vermir, müəyyən müddətdən sonra yaşlı ağaclar quruyur, yeniləri isə qalxmır, nəticədə meşələr seyrəlir, çılpaqlaşır və tədricən sıradan çıxır.

Şəhər mühitinin sağlamlaşdırılmasında və çirklənmə səviyyəsinin aşağı salınmasında yaşıllığın böyük rolu var. Çox təəssüflər olsun ki, son vaxtlar bu yaşıllıqların, xüsusilə də, ağacların kəsilməsi, məhv edilməsi faktları ilə tez-tez qarşılaşırıq. Yaşıllıqların bəzi yerlərdə qəsdən məhv edilməsi, ağacların vaxtında suvarılmaması, habelə bilərəkdən kəsilməsi və məhv edilməsi faktlarını da görməmək mümkün deyil.

Sovet dövründə– 80-ci illərdə Bakıda yaşıllığın ümumi həcmi 15-16 min hektar təşkil edib, hazırda isə təxmini hesablamalara görə bu rəqəm 7-8 min hektar təşkil edir. Bu müddətdə paytaxtda əhalinin sayı 2 dəfə artıb, yaşıllıq sahəsi 2 dəfə azalıb, demək problem 4 dəfə kəskinləşib.

Buna görə də, paytaxtda və ətrafında böyük yaşıllıq kampaniyaları keçirilməlidir, bütün mümkün yerlərdə ağaclar əkilməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Heydər Əliyev Fondundan başqa bu işi görən yoxdur. Bu işə ictimai təşkilatlar da maraq göstərməlidirlər. Ekoloji qeyri-hökumət təşkilatları fondlardan aldıqları qrantların müqabilində faydasız salon tədbirləri keçirməkdənsə, praktiki faydalı işlə məşğul olmalı, ağacəkmə kampaniyaları təşkil etməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi belə təşəbbüsləri dəstəkləyir və belə müraciətlər olduqda tinglərlə təmin etməyə söz verib. Lakin bildiyimə görə, müraciətlər çox azdır.

TƏKLİF

Bakıda əsas ekoloji böhran yaşıllıqların və ağacların məhv olması ilə bağlıdır. Burada əsas problemlərdən biri də odur ki, Azərsu ASC Bakıda bina həyətlərində, məhlələrdə olan su kranlarının çoxunu ləğv edib. Nəticədə artıq minlərlə ağac quruyub, məhv olub. Bunun qarşısı alınmasa, yaxın müddətdə paytaxtımızın ağacsız səhra şəhərinə çevriləcəyinə şübhə yoxdur.

Mövcud ağacların saxlanması sahəsində vəziyyət daha çətindir. Bəzilərini külək aşırır, bəziləri də müxtəlif səbəblərdən quruyur. Ağac əkməklə iş bitmir, bundan sonra onlara qulluq edilməyəndə, vaxtında suvarılmayanda çoxu əmələ gəlmir, çünki Bakıda torpağın keyfyyəti də zəifdir, çox az növdə ağac bu torpaqda, bu iqlimdə yetişə bilir. Ona görə də, hansı tinglərin əkilməsinə xüsusi diqqət verilməlidir, daha çox oksigen verən həmişəyaşıl, dözümlü ağaclar əkilməlidir.

Yeni binaların, yaşayış komplekslərinin tikintisi zamanı onların tutduğu sahəyə müvafiq olaraq yaşıllıq sahəsi şərt kimi qoyulmalıdır. Sakinlər isə binaların həyətlərində boş yerlərdə ağac əkilməsinə təşəbbüs göstərməlidirlər. Yəni, bu işdə həm dövlət, həm cəmiyyət fəal olmalıdır.

Bir çox hallarda aparılan tikinti işləri zamanı yaşıllıqlar məhv edilir. Gecəylə ağcları kəsib aparırlar. Kəsmək mümkün olmadıqda isə, dibinə turşu və ya digər kimyəvi maddələr tökərək qurudurlar. Artıq hamı bilir ki, bir ərazi hasara alınıbsa, orada mütləq bütün ağacları gecə ikən kəsəcəklər. Bəzi hallarda bu faktlar mediaya, sosial şəbəkələrə çıxanda problemin qarşısı alınır, cərimələr edilir. Lakin heç də bütün hallarda məsələ ictimailəşdirilmir. Çünki vətəndaşlarımızın bir çoxunda ictimai məsuliyyət yoxdur. Düşünürlər ki, “mənə nə, kim kəsir kəssin”.

Bunun qarşısının alınması üçün çox ciddi cərimələr və adekvat cəzalar tətbiq olunmalıdır. 3-5 min manat cərimə ilə poblem həll olunmaz. O ərazidə obyekt tikən şəxs ordan ildə 100 min qazanc götürəcəksə, onun üçün bu 3-5 min manatı ödəmək problem deyil. Yaxşı olardı ki, cərimələr 10 dəfə artırılsın, kütləvi ağackəsmə zamanı isə əmlakı müsadirə olunmaqla həbs cəzası verilsin. Əgər ETSN gec xəbər tutubsa və ağaclar artıq kəsilibsə, şirkəti cərimə edib, orada bina tikməsinə imkan yaratmaq olmaz. Cərimədən sonra həmin ərazidə bu şirkətin yaşıllıq salması və 5 il müddətinə ona qulluq etməli olduğu haqda qərar çıxarılmalıdır. Bu başqalarına da dərs olar. Yalnız bu yolla bu “yaşıl terror”un qarşısını almaq mümkün olar.

Sakinlər isə ayıq və məsuliyyətli olmalı, belə faktlara rast gələn kimi, dərhal sosial şəbəkələrdə, mətbuatda yaymalıdırlar. Yalnız bu yolla “yaşıl soyqırım”ın qarşısını almaq olar.

Paytaxtımızda və onun ətrafında boz, çılpaq ərazilər çoxdur. Məsələn paytaxtımızın cənub girişi olan Yeni Salyan şossesinin ətrafı (Bibiheybət məscidindən Su İdmanı sarayınadək olan hissə) bərbad haldadır. Boz səhra ərazisi, neft buruqları və köhnə xaraba tikililər. Paytaxta daxil olan adam üçün Bakı haqda ilk təəssürat çox pis başlayır. Burada böyük yaşıllıq sahəsi, park salmaq üçün imkan var. Təəssüf ki, bununla heç kim maraqlanmır. Bu ərazi Dövlət Neft Şirkətinin balansındadır, lakin şirkət uzun illərdir bu hissəni abadlaşdırmaq istəmir. Ərazidəki neft buruqlarının da çoxu istifadə olunmur. Digər ərazilərdə də belə yerlər var- məsələn Keşlə, Dərnəgül, Böyükşor, Binəqədi və s. Bu ərazilərdə yaşıllıqlar, parklar salınmalıdır.

Ümumiyyətlə, yaşıllıqların salınması, meşələrin bərpası üçün xüsusi Dövlət Proqramı qəbul olunmasına ehtiyac var. Qlobal ekoloji böhranların gözlənildiyi bir vaxtda ölkəmizi təbii məkana çevirmək əsas vəzifələrimizdən biri olmalıdır.

***Elçin Bayramlı***
***Sağlam Cəmiyyət Hərəkatının rəhbəri***

# Müslüm Maqomayev: bir ömür “Azərbaycan”



***Dünyaya insan gəlir. Eyni doğulanlar, fərqli insanlar dünyasına... Doğumlar nə qədər bir-birinə bənzəsə də, insanlar bir o qədər fərqlidir bu dünyada. 81 il öncə avqustun 17-də məşhur Maqomayevlər nəslinin davamçısı olaraq dünyaya göz açan Müslüm kimi. Hamı kimi doğulmuşdu, lakin illər sonra onun fərqliliyinə hər kəs şahid olacaqdı. Çünki Müslüm Maqomayev yumruq boyda ürəyinə böyük Azərbaycan sevgisini sığdırıb bir ömür “Ey, əziz anam, Azərbaycan! Sənə bağlıyam, Azərbaycan! Ömrümün mənasısan, qardaşlıq dünyasısan, anamın anasısan, Azərbaycan” deyərək dünyanı gəzəcək, bütün konsertlərinin həm əvvəlində, həm də sonunda “Azərbaycan” deyəcəkdi.***

Həm qəlbindən, həm dilindən “Azərbaycan” kəlməsi düşməyəcək, onu ölkə-ölkə dünyanın hər yerinə özü ilə aparacaqdı. Əslində isə Müslüm Maqomayev “Azərbaycan”la bir ömür Vətənini dünyaya tanıdırdı. Bir Vətənə bir övladın sevgisini təcəssüm etdirirdi. Bir vətəndaşın necə Vətən daşı olmasını göstərirdi.

* * *

Bizim nəsil Müslüm Maqomayevin səsini kəşf edəndə gənclik çağına yenicə qədəm qoymuşdu. Uşaqlıq, yeniyetməliyin yeqin ki, başımızı qatan oyunları, əyləncələri bu tanışlıqda bir qədər bizi ləngitmişdi. O zamanadək dinləməmiş deyildik Müslüm bəyi. Çünki o, hər an evlərimizdə idi. Lakin gözümüz gənclikdə daha çox açıldığından biz Müslüm Maqomayevin kim olduğunu elə o dövrdən anlamağa başlamışdıq. Çünki hər şeydən əvvəl televiziya ekranlarında yaraşıqlı bir adam görürdük. Bənzərsiz bir səsin fonunda isə fəqli bir insanı yaxından tanımış olurduq. Açığı bu insan bizə möcüzə kimi gəlirdi, desəm, daha çox yerinə düşər. Çünki onu həmişə səliqəli geyimdə, şux qamətdə, əzəmətli duruşda və heyranedici bariton səsinin sehri ilə qarşılayırdıq.

### Bakılı gənc dünyanı fəth edir

Doğum günündə Müslüm Maqomayevin keçdiyi ömür yoluna nəzər salmaq elə onu anmaq, xatırlamaqdır. Bu səbəbdən də xatırlayaq ki, kiçik yaşlarından istedadı kəşf edilən bu gözəl bəstəkar-müğənni 1950-ci illərin axırlarında, yeniyetməlik və ilk gənclik illərində Bakı məhəllələrindən birindəki həyətlərində, dostlarının arasında oxuyardı.

Bakıda tayı-bərabəri olmayan bu bariton səsi eşidən hər kəs istər-istəməz ona diqqət kəsilər, bu səsin sehrindən çıxa bilməzdi. Artıq 15-16 yaşında tanınırdı, öz pərəstişkarları vardı. Onu klublarda, məktəblərdə, institutlarda, hətta Bakı bulvarında oxumağa dəvət edirdilər. O isə bu dəvətlərin heç birini cavabsız qoymazdı.

Gənc Müslümün nadir səsi, qeyri-adi istedadı təbii ki, Azərbaycanın musiqi ictimaiyyətinin diqqətini də cəlb etmişdi. Məşhur dirijor və bəstəkar Niyazi onu çox sevir, sənətdəki hər addımına göz qoyur, qayğısına qalırdı. Oxumaqdan yorulmayan Müslüm təcrübəli pedaqoqlardan dərs aldıqca səsi daha da cilalanır və gözəlləşir, tembri zənginləşirdi. O, ilk rəsmi uğurunu 1962-ci ildə qazanır. Maestro Niyazinin tövsiyəsi ilə tələbə və gənclərin Helsinkidə keçirilən VIII Ümumdünya Festivalına göndərilən Müslüm Bakıya medalla qayıdır. Populyar “Oqonyok” jurnalı onun portretini və “Bakılı gənc dünyanı fəth edir” başlıqlı məqalə dərc edir.

### Qeyri-adi həyat yolu

Qeyri-adi uğurlara imza atan Müslüm Maqomayevin həyat və sənət yolu da qeyri-adi olmuşdur. 19 yaşında Helsinkidə gənclər festivalında, 1963-cü ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində uğurlu çıxışları ilə şöhrət qazanmağa başlamışdı. 1960-cı illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, İtaliyanın Milan şəhərindəki “La Skala” teatrında təcrübə keçmiş, Enriko Pyatsa ilə “Sevilya bərbəri” operasından Fiqaronun, “Toska” operasından Skarpianın partiyalarını hazırlamışdır.

1966-cı ildə Parisin “Olimpiya” konsert salonunda ilk konsertini vermiş, 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş, 1969-cu ildə Sopotda (Polşa) keçirilən Beynəlxalq Mahnı Festivalında ilk mükafatını almışdır.

1975-ci ildə “Azərbaycan Dövlət Estrada-Simfonik Orkestri”nin bədii rəhbəri təyin edilmişdir. Bu orkestrlə Sovet İttifaqının bir sıra şəhərləri ilə yanaşı, Fransa, Bolqarıstan, Polşa, Finlandiya, Kanada və İranda konsertlər vermiş, 1970-ci illərdən həyatını estrada ilə bağlayıb və görünməmiş populyarlıq qazanmışdır.

Keçmiş SSRİ-nin hər yerində çıxışlar etmiş, stadionlarda konsertlər vermiş, televiziya onun konsertlərinə geniş yer ayırmış, qrammofon valları böyük tirajla buraxılmışdır. Repertuarı hərtərəfli və olduqca genişdir. Populyar mahnılarla yanaşı, dünya hitlərini, klassik əsərləri, kinolara yazılmış mahnıları məharətlə səsləndirmişdir. Azərbaycan Ali Sovetinin deputatı olmuş, bir sıra orden və medallarla təltif edilmişdir.



### Ən böyük arzu və əsl Fiqaro

Müslüm Maqomayevin ən böyük arzularından biri İtaliyada təhsil almaq olub. Nəhayət, həmin gün də gəlib yetişmiş və gənc Müslüm Azərbaycan Opera və Balet Teatrı tərəfindən “La skala” teatrına təcrübə toplamağa göndərilmişdir. O, hələ uşaqlıqdan Mattia Battistini, Enriko Karuzo, Mario del Monako, Tinna Ruffo kimi italyan klassiklərinin qramplastinkaları ilə maraqlanmış, onlardan qiyabi olaraq vokal dərsləri almışdır. İndisə gənclik xəyalları gerçəkləşmiş və ona Çenarro Barro, Enriko Pyatsa kimi canlı korifeylərdən dərs almaq nəsib olmuşdu.

Beləliklə, Müslüm Bakıya əsl Fiqaro kimi qayıtmış və “Seviliya bərbəri” tamaşasında səhnəyə çıxmışdır. Görkəmli pianoçu Rauf Atakişiyevlə dostluğu və əməkdaşlığı onun bu yolda daha böyük uğurlarına yol açmışdır. “Seviliya bərbəri” operasının hər tamaşası anşlaqla keçmiş və Bakı tamaşaçıları Fiqaronu – Müslüm Maqomayevi görünməmiş coşqu ilə qarşılamışdır.

Müslüm Maqomayev Eldar Quliyevin filmlərinə musiqi yazmış, daha sonra rejissor Qleb Drozdovun sifarişlərini yerinə yetirmişdir. Belə ki, o, “İqor polku haqqında dastan” əsərinin motivləri əsasında hazırlanmış “Yaroslavna” tamaşasına musiqi bəstələmişdir. Özü həmin tamaşada knyaz İqor, Tamara Sinyavskaya isə Yaroslavna rolunu ifa etmişdir.

### Tamara Sinyavskaya-Müslümün “Melodiya”sı

Nə qədər bacarıqlı, istedadlı, qabiliyyətli olursan, ol, istər kişi, istərsə də qadın olsun, gözəl həyatı ailə tamamlayır. Ailəsiz insan özünü həyatda tapa bilmir, sanki yarımçıq qalmış bir işin öhdəsindən gələ bilmir. Lakin ailə sanki uğurların da davamıdır. Həzin bir musiqidir, qulaq asdıqca doymadığını hiss etdiyin musiqi. Elə buna görə deyildimi Müslüm “Melodiya” mahnısını Tamara Sinyavskaya əsl sevgi nəğməsi olaraq həsr etmişdi.

Bir ömür bir-birini sevən, çətin gündə də, xoşbəxt günlərdə də sevinc və kədəri bölüşən bu iki insan həm də gözəl bir ailədə birləşib, onu 35 ilə çatdıra, ülvi hissləri yaşada bilmişdilər. Bu insanları sevgi ilə yanaşı, həm də hörmət hissi bir-birinə bağlayırdı. Tamara xanımın dediyi kimi: Sevgidən, bağlılıqdan başqa, daha bir hiss var – dərin hörmət. Bax, əgər biz bir-birimizlə mübahisə etsək də, bu çox emosional, ucadan olur – amma 3 dəqiqəlik. Biz ayrı-ayrı otaqlara çəkilirik...və sonra çıxırıq: söhbət nədən gedirdi, yağışmı keçdi? Vəssalam. Mən Müslümə kişi mənşəyinə görə çox hörmət edirəm. O müdrikdir...Ümumi maraqlarımız çox idi. Xüsusən söhbət musiqidən, oxumadan gedəndə. Müslüm televizorla onda güclü emosiyalar yaradan kiminsə çıxışını görən kimi dərhal mənə deyirdi: “Sən bunu eşitdin?!”. Və “suallar və cavablar”, heyranlıq və ya hiddətlə dolu axşam başlayırdı. Müslüm çox emosional insan idi, lakin buna baxmayaraq bizim zövqlərimiz və rəylərimiz demək olar ki, hər zaman üst-üstə düşürdü. İndi bu əyləncəli dialoqları aparmaq üçün heç kim yoxdu...

### Azərbaycan Mülüm Maqomayevi yaşadır, yaşadacaq

Bizim xalq qədirbilən xalqdır. Həm Müslüm Maqomayev, həm də onun kimi yüzlərlə istedad sahibi bu xalqın həm qəlbində, həm də maddi-mənəvi irsində yaşayır, yaşadılır, yaşadılacaq da. Müslüm Maqomayev xalqımız tərəfindən də, dövlətimiz tərəfindən də lazımi dəyərini alıb. Onun haqqında filmlər çəkilib, yubileyləri təntənəli şəkildə, dövlət səviyyəsində qeyd olunub. Mükafatlarını isə saymaqla bitməz.

Müslüm Maqomayev Bakıda dəfn olunub. Ömrünün sonunadək Azərbaycanla birlikdə dünyanı gəzən bu bənzərsiz istedad sahibi ömrün son günü Vətəninin torpağında uyudu. Çünki xalqımızın belə bir qədim deyimi də var: gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşı.

### Və son-əlvida, ey Bakı

Müslüm Maqomayevin Sergey Yeseninin sözlərinə bəstələdiyi və yalnız evindəki studiyada yazdırmağa macal tapdığı “Əlvida, ey Bakı” mahnısı onun sonuncu əsəri olub. Maraqlıdır, bu, bir təsadüf idimi, yoxsa həyatın gərdişimi?.. Nə üçün onun son əsəri məhz “Əlvida, ey Bakı” olub?

Həyat bəzən bizə elə töhfələr bəxş edir ki, onun nə olduğunu zamanla anlayırıq. Elə “Əlvida, ey Bakı” da həyatın Müslüm Maqomayevə töhfəsi olub. Bir ömür həyata töhfəsini verən sənətkara həyatın son töhfəsi. Bu töhfənin düşündürən cəhəti onun Bakı ilə, həm də vidalaşmaq kimi incə hisslərlə bağlı olmasıdır. Müslüm Maqomayev nə üçün musiqi bəstələmək üçün bu şeiri seçmişdi? Nə üçün “Əziz Bakı, əlvida! Son görüşdür, əlvida. Bir həyəcan, bir kədər könlümü etmiş Vətən. Ürəyim narahatdır bu ayrılıq çağında...” ifadələrinə musiqili nəfəs vermişdi? Bəlkə bu ifadələri elə ömrün son günü, son gün deyəcəyi söz kimi düşünürdü?..

Bu doğum günündə Müslüm Maqomayevi dərıni hisslərə anır, onu dərin hörmət və saygı ilə xatırlayırıq. Çünki onu Bakıya əsla “əlvida” demiş sanmırıq. O, Bakıdadır, paytaxtdan bütün Azərbaycana yayılan nəğmələrindədir. Bu nəğmələr susmayacaq ki, Müslüm Maqomayev də unudula...

*Mətanət Məmmədova*

# "Son şans zirvəsi"

## Yaxın Şərqdə hərbi əməliyyatları dayandırmaq üçün qəti cəhd göstərilib

***Qətərin paytaxtı Dohada avqustun 15-də İsrail, Qətər, Misir və ABŞ nümayəndələrinin iştirakı ilə Qəzza zolağında atəşkəslə bağlı danışıqlar başlayıb. Həmas danışıqlarda iştirak etmir, lakin onun adından qətərlilər və misirlilər danışıblar. Bu, minlərlə insanın həyatına son qoyan və dünyanın müxtəlif regionlarında siyasətçilər üçün bu qədər problem yaradan münaqişədə atəşkəsə nail olmaq üçün sonuncu cəhd ola bilər. Dohadakı razılaşmanın İranın Həmas liderlərindən biri İsmayıl Həniyənin öldürülməsinə geniş şəkildə elan edilmiş cavabını ləğv etmək şansı olması da mümkündür. Həmas və Tehran atəşkəs faktının özünü qələbə hesab edəcək.***



Doha danışıqları kəşfiyyat xidmətlərinin işidir. Onlar orada ən yüksək səviyyədə təmsil olunurdular. İsraildən danışıqlarda



MOSSAD rəhbəri David Barnea, Baş Təhlükəsizlik Xidmətinin (Şin Bet) rəhbəri Ronen Bar və Baş Qərargahın Əməliyyat İdarəsinin rəisi Nitzan Alon iştirak edib. Yəni, yəhudi dövləti tərəfində iki əsas kəşfiyyat xidmətinin rəhbərləri və girovların azad edilməsinə cavabdeh olan hərbçi var idi. Bundan başqa, danışıqlarda İsrail baş nazirinin müşaviri Ofir Falk da iştirak edib. İsrail hökumətinin başçısı Benyamin Netanyahunun rəhbərliyi altında beynəlxalq əlaqələr üzrə baş mütəxəssisdir. ABŞ-ı Dohada Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Uilyam Berns və Ağ Evin Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Brett Makqurk, Misiri isə kəşfiyyat rəhbəri Abbas Kamel təmsil edib. Danışıqlara Qətərin baş naziri Şeyx Məhəmməd bin Əbdülrəhman Əl Tani rəhbərlik edib. Yeri gəlmişkən, ölkəsinin kəşfiyyat xidmətləri ona tabedir.

Mətbuatda Doha danışıqları çağırıldığı üçün son ana qədər bu "son şans zirvəsi"ndə Həmas nümayəndəsinin iştirak edib-etməyəcəyi bəlli deyildi. Haniyənin Qətərdə qorxmadan yaşadığı bəlli idi. Bu monarxiyanın hakimiyyət orqanları ilə İsrail arasında bir centlmen razılaşmasının olduğuna dair ümumi bir fikir (heç kim tərəfindən rəsmi olaraq təsdiqlənməyib) var: MOSSAD Qətər ərazisində Fələstin liderlərinin ləğvini həyata keçirmir. Haniyə Tehranda öldürülsə də, sazişin artıq qüvvədən düşməsi ilə bağlı qorxu Yaxın Şərq mətbuatında da yer alıb. Həmas Siyasi Bürosunun üzvü Kamal Əbu Aun yalnız çərşənbə günü təşkilatının nümayəndəsinin Dohada keçiriləcək danışıqlarda iştirak etməyəcəyini təsdiqləyib. Bu, HƏMAS-ın dialoqdan imtina etməsi demək deyil.

Türkiyənin "Hürriyet" qəzetinin yazdığına görə, bu yaxınlarda HƏMAS Siyasi Bürosunun üzvü olmuş Haniyənin varisi, israillilərin ən nifrət etdiyi şəxs Yəhya Sinvar danışıqları hədəfə alıb. O, 7-8 oktyabr 2023-cü ildə baş verən hücumun birbaşa təşkilatçısı olub. İsrail rəsmiləri dəfələrlə birbaşa və açıq şəkildə bildiriblər ki, heç bir halda Sinvarı sağ buraxmayacaqlar. Buna baxmayaraq, ona sülh müqaviləsi verə biləcək həyat və ən azı müvəqqəti təhlükəsizlik təminatı verilə bilər.

Misir, Qətər və ABŞ danışıqlarda vasitəçi hesab edilən üç ölkədir. Onlar Amerika mətbuatının Bayden planı adlandırdığı şey əsasında hərəkət edirlər. Söhbət ABŞ prezidenti Cozef Baydenin mayın 31-də səsləndirdiyi nizamlanma prinsiplərindən gedir. Onlar atəşkəsin üç mərhələdə olacağını təklif edirlər. Əvvəlcə atəş dayandırılacaq, İsrail qoşunları Qəzza zolağında nəzarət etdiyi əraziləri tərk edəcək, HƏMAS İsrailli girovların bir qismini azad edəcək, İsrail isə yüzlərlə fələstinli məhbusu azad edəcək, beynəlxalq ictimaiyyət Fələstin anklavına humanitar yardımın həcmini artıracaq. Bu mərhələ altı həftə çəkməlidir. İkincisi, İsrail qoşunlarının tamamilə çıxarılmasını, bütün israilli girovların və hətta daha çox fələstinlinin azad edilməsini və hərbi əməliyyatların tamamilə dayandırılmasını əhatə edəcək.

Daha sonra üçüncü mərhələ başlayacaq - Qəzza zolağının bərpası və ölənlərin cəsədlərinin dəyişdirilməsi. Təbii ki, hər şey konkretlikdən asılıdır. Hansı məhbuslar azad edilməlidir? Döyüşlərin dayandırılması Sinvar kimi Həmas liderlərinin özlərini təhlükəsiz hiss edə biləcəkləri anlamına gəlirmi? Və nəhayət, Qəzza zolağında hakimiyyət kimdə olacaq? Bu və digər suallar Doha danışıqlarına qədər cavabsız qalırdı.

İranın bağlanma ehtimalı olan sazişə necə reaksiya verəcəyi də bəlli deyil. Bayden birbaşa bəyan etdi ki, razılaşma əldə olunarsa, iranlılar Haniyə üçün qisas almaqdan, daha dəqiq desək, İsrailə zərbə endirməkdən imtina edəcəklər. Bu baş verərsə, ABŞ prezidenti mühüm PR qələbəsini qazanacaq. Yaxın Şərqdə sülh Demokratların namizədi Kamala Harrisin noyabrda keçiriləcək prezident seçkilərində uğur qazanmasına böyük fayda verəcək. Donald Tramp isə Ağ Evin sülh səylərini qısqanclıqla izləyir. Axios öz mənbələrinə istinadən xəbər verir ki, o, hətta sülh prosesində öz sözünü deməyə çalışıb. İddialara görə, Tramp Netanyahuya zəng edərək onu HƏMAS ilə razılığa gəlməyə inandırıb. Lakin İsrail hökuməti bunu təsdiqləməyib.

***V.VƏLİYEV***

RAKURS




# Aleksandr Kobrinski: "Ermənistan Qərbin Cənubi Qafqazı sarsıtmaq üçün tramplininə çevrilir"

***Rusiya Etno-Milli Strategiyalar Agentliyinin rəhbəri, tarix elmləri doktoru, professor Aleksandr Kobrinskinin Caliber.Az-a müsahibəsində Ermənistan-Qərb ittifaqının Cənubi Qafqazdakı planlarından danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***

**— Sizcə, ABŞ niyə Ermənistanda hərbi mövcudluğunu gücləndirir? Onların Cənubi Qafqazda əsas məqsədi nədir?**

— Fikrimcə, Amerikanın Ermənistanla bağlı siyasəti müstəsna olaraq kinli istehlakçı xarakter daşıyacaq. Onların məqsədi bəllidir. Birinci mərhələdə sabitləşdirici amil kimi Rusiyanı Ermənistandan sıxışdırmaq. Sonrakı mərhələlərdə Ermənistanı Cənubi Qafqazda təxribat və təxribat fəaliyyətləri üçün tramplinə çevirmək. Məqsəd regionda idarə olunan xaos yaratmaq və qonşu ölkələrə nüfuz edərək onları parçalamaq və Ermənistan ərazisindən istifadə etməklə hamını hamıya qarşı qoymaqdır. Heç bir istisna yoxdur. Və bütün bunlar resursları ələ keçirmək, Mərkəzi Asiyadan Avropaya, Hindistandan Aralıq dənizinə, Şimaldan-Cənuba və s. logistika marşrutlarını bağlamaq və onlara nəzarət etmək naminədir. Üstəlik, logistikaya nəzarəti ələ keçirmək, bəlkə də, resurslara nəzarətdən daha vacib vəzifədir.

**— Ermənistan Müdafiə Nazirliyində amerikalı müşavir peyda olacaq. Bu niyə edilir?**

— Dövlət Departamentinin məlumatına görə, guya hərbi attaşe Ermənistan Müdafiə Nazirliyinə silahlı qüvvələrdə islahatlara kömək edəcək. Əslində hərbi müşavirin silah alınmasına və Ermənistan ordusunun NATO standartına keçirilməsinə nəzarət edəcəyini düşünürəm. Həm də Ermənistanın hərbi idarəsinin hərəkətlərinə nəzarətçi funksiyasını yerinə yetirir.

**— Rusiyada hesab edirlər ki, Qərb Ermənistandan 2-ci Ukrayna yaratmaq niyyətindədir. Bunun üçün real ilkin şərtlər varmı?**

- Bəli. Qərb təkcə bunun bağlı öz qərarını vermədi. O bunu realda edir. İndi Ermənistan yeni dostları ilə anti-Rusiyaya doğru onsuz da məğlub olunmuş yolda möhkəm addımlarla irəliləmək niyyətindədir. Əgər bir dövlətin rəhbərləri öz xalqına xəyanət edib, anqlosakslara satılbsa, öz ölkəsinin vətəndaşlarını tarixdən məhrum etmiş olurlar. Klio isə bir neçə dəfə dediyim kimi, ona hörmət etməkdən imtina etdiyi üçün həm xalqı, həm də onların yaratdığı dövləti məhv edir.

**— Nisbətən bu yaxınlarda ABŞ dövlət katibinin köməkçisi O'Brayen etiraf etdi ki, Vaşinqton Ermənistana Rusiyadan uzaqlaşdırmağa kömək edir. ABŞ niyə bu faktı açıq etiraf edir?**

- Siyasət bitdi. Qərbin siyasəti siyasətçiləri sıxışdıran məmurlar tərəfindən idarə olunmağa başladı. Onların planlaşdırma üfüqü ən yaxşı halda səlahiyyət müddəti ilə məhdudlaşır, lakin real olaraq bir və ya iki ildir. Siyasətçilər onilliklər sonranı düşünürlər. Məmurun vəzifəsi o, nə qədər yüksək səslə danışsa, sahibi onu bir o qədər yaxşı xatırlayacaq, karyerası daha yaxşı olacaq. Russofobiya indi dəbdədir. Ermənistan amerikalıların əlində alətə çevrilir və amerikalılar bunu heç gizlətmirlər. Rusiyanı ələ saldıqlarını düşünən erməni xalqı Nikol Paşinyanın siyasətindən əziyyət çəkəcək. Qərb sponsorlarının sifarişi ilə hərəkət edən Paşinyan təkcə öz xalqına deyil, tarixinə də xəyanət edir. A.S Puşkin hələ 1830-cu ildə deyirdi: "Vəhşilik, alçaqlıq və cəhalət keçmişə hörmət etmir, yalnız indiki zaman hədəfindədir".

**— Artıq Zəngəzurda ABŞ-ın hərbi mövcudluğu qeydə alınıb. Gələcəkdə Ermənistanda tamhüquqlu ABŞ hərbi bazasının yaranması ehtimalı nə dərəcədədir?**

-Düşünürəm ki, ABŞ-ın indi vəzifəsi hərbi baza yaratmaqdan çox Rusiyanı bölgədən sıxışdırmaqdır. Üstəlik, bu istiqamətdə sistemli və ardıcıl işləyirlər. İndi Rusiyanın diqqəti ABŞ-ın istifadə etmək istədiyi Ukrayna münaqişəsindən yayınıb. Onlar artıq Rusiya sərhədçilərini Ermənistanın "Zvartnots" hava limanından sıxışdırıb çıxarıblar və indi hər şeyi və istənilən miqdarda idxal edə bilirlər. Hesab edirəm ki, ayrılan milyonlarla nə gətirəcəklərini izah etməyə ehtiyac yoxdur.

**— Gümrüdəki Rusiya hərbi bazasının taleyi necə olacaq?**

— Rusiya bazası bütün mümkün imkanlarla sıxışdırılacaq. Çox güman ki, ABŞ fransızları gərginləşdirəcək və onlar öz hərbi kontingentini Ermənistana göndərəcəklər. Düşünürəm ki, fransızlar Afrikanın qisası olaraq bu məsələni təxirə salmayacaq və gələcəkdə Ermənistanda peyda olacaqlar.

***Tərcümə - Elçin Bayramlı***



# Səudiyyə şahzadəsinin həyatı təhlükədə

## Ər-Riyad Vaşinqtona fələstinlilərin maraqları uğrunda mübarizədə mövqeyini izah edib

İsraillə münasibətlərin normallaşması Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi bin Salman ilə ABŞ administrasiyasının nümayəndələri, xüsusən də Antoni Blinkenlə təmaslar Yaxın Şərqdə hər kəsə nəsib olmur. Şahzadə Məhəmməd bin Salman Vaşinqtona xəbərdarlıq edib ki, İsraillə münasibətlərin normallaşdırılmasına dair razılaşma onun həyatı bahasına başa gələ bilər. Taxtın varisi təklif edib ki, ərəb-yəhudi normallaşması haqqında müqavilənin bağlanması Fələstin dövlətinin yaradılması ilə bağlı dəqiq qərar verilmədən baş verərsə, onun həyatına qəsd edilə bilər. Qərb nəşrləri bu cür bəyanatları Ağ Evə mənəvi təzyiq cəhdi adlandırır. Bununla belə, Qəzzadakı müharibə ərəb hökumətlərini narahat edir. Vəliəhd şahzadə Məhəmməd narahatlığını amerikalı konqresmenlərlə bölüşüb, media söhbət iştirakçılarına istinadən xəbər verir. “Səudiyyəlilər Fələstinin taleyindən dərin narahatdırlar və bütün Yaxın Şərq dərin narahatlıq yaşayır”, – nəşrin mənbələrindən biri taxt varisinin dediklərini şərh edib. “Mənim İslam ziyarətgahlarının mühafizəçisi kimi fəaliyyətim bölgəmizdəki ən aktual ədalət məsələsini həll etməsəm, kövrək olacaq”. Vəliəhd etiraf edib ki, 1981-ci ildə İsraillə sülh müqaviləsi bağladıqdan sonra öldürülən Misir lideri Ənvər Sadatın taleyi onu gözləyə bilər.

Vəliəhd şahzadə Məhəmmədin saray çevrilişi riski ilə üzləşməsi ilə bağlı şayiələr 2017-ci ildən, o, taxt-tac varisliyinə zorla müdaxilə edərək, qardaşı Məhəmməd bin Nayefi taxt-tac iddiasından əl çəkməyə məcbur etdiyi vaxtdan yayılıb. Eyni zamanda vəliəhd Səudiyyə elitasına qarşı güclü repressiv kampaniyaya başlayıb, nüfuzlu biznesmenləri, məmurları və kral ailəsinin üzvlərini korrupsiyada ittiham edib. Onun sosial və iqtisadi islahatları, o cümlədən gender ayrı-seçkiliyinin azaldılması və iqtisadi diversifikasiya ABŞ-da müsbət qarşılansa da, onun repressiya siyasəti imic səhvinə çevrilib. Reputasiya böhranı 2018-ci ildə rejim tənqidçisi Camal Qaşıqçının qətli ilə yekunlaşıb.

O zaman insayderlər iddia edirdilər ki, Məhəmməd ölkənin iqtisadi paytaxtı, Qırmızı dənizdə yerləşən Ciddə şəhərində dayanmış şəxsi yaxtada həyatı üçün qorxduğundan gecələyir. Sosial şəbəkələrin ərəbdilli seqmentində taxt-tac varisinə sui-qəsd cəhdi ilə bağlı son şayiələr bu ilin mayında ortaya çıxıb. Daha sonra söhbət onun avtomobilinin partladılmasından gedirdi. Bununla belə, ümumilikdə şayiələr dezinformasiya müharibəsinin elementi kimi görünürdü. Rəqib ərəb dövlətləri cəmiyyətdə gərginliyi artırmaq üçün tez-tez bir-birinə qarşı belə kampaniyalar aparırlar. Qərb nəşrləri vəliəhdin Sədatın taleyinə müraciət etmək cəhdini şantaj vasitəsi adlandırır. Prezident Cozef Bayden administrasiyasının Benyamin Netanyahunun başçılıq etdiyi hökumətə diplomatik təzyiqi artırmasında və Yaxın Şərqdəki müttəfiqini hökumətə güzəştə getməyə məcbur etməsində maraqlıdır. Bununla belə, Məhəmmədlə söhbətin iştirakçıları iddia edirlər ki, o, İsraillə normallaşma sazişi bağlamaqda qərarlıdır - hətta onunla bağlı risklərə baxmayaraq, çünki hakim palata ”İbrahim” razılaşmalarını krallığın gələcəyi üçün kritik hesab edir. Bəzi məlumatlara görə, Səudiyyə Ərəbistanı hətta ABŞ-a güzəşt kimi Çinlə əlaqələri məhdudlaşdırmağa hazır olduğunu bildirib. Qeyd edək ki, İsrail cəmiyyəti mövcud vəziyyətlə bağlı heç də az radikal deyil. Qüds İctimai Əlaqələr Mərkəzinin (JCPA) iyun ayında keçirdiyi sorğuya görə, ölkənin 64%-i Səudiyyə Ərəbistanı ilə razılaşmanın bir hissəsi olaraq Fələstin dövlətinin yaradılması qərarının əleyhinədir. Üstəlik, yəhudi əsilli respondentlərin 74%-i bu ssenariyə qarşıdır. Vəliəhd şahzadə Məhəmməd həqiqətən də sui-qəsd mövzusundan manipulyasiya məqsədləri üçün istifadə etsə belə, Körfəz ölkələri Qəzzadakı müharibə fonunda sayıqlığını artırmaya bilməzdilər. Avqustun əvvəlində Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Baş Prokurorluğu ölkədən kənarda fəaliyyət göstərən və dövlətin sabitliyinə xələl gətirməyə çalışan gizli təşkilatı müəyyən etdiyini açıqlamışdı. Ədliyyə orqanları öz bəyanatlarında qeyd edirlər ki, struktur hazırkı hakimiyyətin reputasiyasına xələl gətirməyə yönəlmiş dezinformasiya kampaniyaları aparmaq, Əmirlik cəmiyyətini qütbləşdirməyə çalışmaq, eləcə də dövlət təhlükəsizliyini pozmaq üçün xarici kəşfiyyat xidmətləri ilə əməkdaşlıq etməklə məşğul olub. Əmirlik rəhbərliyi bu müxalifət hüceyrəsini açıq şəkildə Fələstinin Həmas qruplaşmasının əsas təşkilatı olan Müsəlman Qardaşlar hərəkatı ilə əlaqələndirib. Prokuror məxfi strukturun maliyyə nüvəsi kimi Türkiyə və Qətərlə sıx bağlı olan xarici fondları göstərib.

**V.SALAH**



Afət Tahirqızı

# Alban kilsəsi - imperatorun fərmanı qüvvədən düşməlidir!

***Rusiya İmperatorluğunun qədim Alban kilsələrini zorən Azərbaycan xalqının əlindən alınaraq erməni apostol kilsəsinə verilməsi ilə bağlı fərmanı, əslində, heç bir qüvvəyə malik deyil və bu reallıq diktə edir ki, 1836-cı ildə verilmiş həmin fərmanın Azərbaycan xalqının tarixi irsinə heç bir təsiri ola bilməz. Bəs bu necə olmalıdır?***

### Azərbaycan dövləti Qafqaz Albaniyasının mədəni və tarixi sələfidir!

Təbii ki, Azərbaycan dövlətinin diktəsi əsasında. Belə ki, Azərbaycan Prezidenti İlham Əliyev də vurğulayıb ki, Azərbaycan dövləti Qafqaz Albaniyasının mədəni və tarixi sələfidir. Məhz bu baxımdan yanaşsaq bəlli olur ki, qədim Qafqaz Albaniyanın malik olan hər nə varsa, bu, eyni zamanda bizim xalqımıza məxsusdur.

Proseslər isə belə davam edə bilər:

Konstantinopol patriarxatına rəsmi müraciət və tarixi reallığın bərpası!

Və ən əsası, Albaniya Apostol Kilsəsinə məxsus bütün məbədlər Qərbi Azərbaycan torpaqlarında da qeydə alınmalıdır - Zəngəzurda, Şərqi Göyçədə, Vedibasarda, Zəngibasarda və ermənilərin ”Kirants” adlandırdıqları Tovuzqalada!

### Kilsə erməni monofizitlərindən azad edilməlidir!

Kilsə erməni monofizitlərindən azad edilməlidir! Yeri gəlmişkən, qeyd edək ki, Zəngəzur, Utik, Paytarakan, Xaçen və s. ərazilər bilavasitə (!) Qafqaz Albaniyanı knyazlığı tərəfindən yaradılmışdır.

Beləliklə, Zəngəzur gec-tez monopoliya və saxta erməni qriqorian kilsəsinin təsirindən azad edilməli və tarixi mənbəyinə qaytarılmalıdır. Bu gün Azərbaycanda kifayət qədər Alban Apostol Kilsəsinə aid insanlar, inanclılar yaşayırlar və bu amil də göstərir ki, onların hüquqları bərpa olunmalı, kilsə erməni monofizitlərindən azad edilməlidir! Hər halda düşünməyə dəyər...

# “Qadın kişinin qulluqçusu olmamalıdır”

“Bilirsiniz, bizim cəmiyyətimiz tarix boyu ənənəvi olub. Belə ənənəvi cəmiyyətlərdə kişi mərkəzli patriarxal cəmiyyətlər olur. Yəni kişilər dominant olur, qadınlar onlara nisbətən həmişə ikinci mövqedə dururlar. Bu stereotiplər daha çox məsələn 30-40 il qabaq cəmiyyətimiz üçün daha sərt idi. Amma hesab edirəm ki, müstəqillik qazandıqdan sonra Azərbaycan cəmiyyətinin arxetiplərində, stereotiplərində və mental tərzlərində də dəyişikliklər olub. Artıq cəmiyyətimiz qlobal cəmiyyətə açıqdır, açıq cəmiyyətə inteqrasiya olunuruq və bu cəmiyyətlərdə də biz mədəni, mənəvi mübadilədə oluruq, başqa cəmiyyətlərdən müəyyən şeylər götürürük və həmin cəmiyyətlərə müəyyən şeylər ötürürük. Bu, həm də filmlər, seriallar, xarici səyahətlər nəticəsində baş verir”. Bu sözləri SİA-ya açıqlamasında sosioloq Üzeyir Şəfiyev deyib.

Üzeyir Şəfiyev sözlərinə belə davam edib: ”Güman edirəm ki, bu patriorxal yanaşma ənənəvi cəmiyyət yanaşması ki var, məhz qadın kişinin qulluğunda durmalı, qadın kişiyə xidmət etməlidir kimi yanaşma da zaman-zaman bu stereotiplər əriyəcək və bu düşüncədən biz xilas ola bilərik. Əslində, məsələn ənənəvi, patriorxal



cəmiyyət olduğumuza görə əmək bölgüsü belə şəkillənmişdir ki, kişilər çöl işləri, qadınlar da ev işləri ilə məşğuldur. Hətta belə bir yanaşma da vardır, qadınlar kişilərin qulluğunda durmalıdır və yaxud da evdar bir qadın obrazı var idi. Amma hesab edirəm ki bu fərdi məsələdir. Hər ailənin özünün psixoloji düzəni, yanaşması var. Əmək bölgüsü hər ailəyə uyğun dəyişə bilir. Elə ailələr var ki, məsələn orada qadın daha çox funksionaldır, elələri də var ki, kişi daha çox funksionaldır. Hesab edirəm ki, bu iş bölgüsündə hər kəsin bacarıqlarına və səriştələrinə görə bölgü aparılmalıdır. Burada qarşılıqlı anlaşma və qarşılıqlı gözləmə olmalıdır ki, yəni kimsə kiməsə tabe olmaq, kimisə hansısa bir işə məcbur etmək kimi düşüncədən biz uzaq olmalıyıq. Mədəni, yüksək intellektual səviyyəli bir qarşılıqlı gözləmə mühiti olmalıdır. Əlbəttə ki, bizim Azərbaycan cəmiyyətinin çox maraqlı, dəyərli adət-ənənələri var. Burada maraqlı arxetiplər var, ağsaqqal arxetipi, ağbirçək arxetipi, böyük-kiçik məsələləri var. Güman edirəm ki, bu məsələlər sırf ailə daxilində və anlayışla tənzimlənməlidir. Məcbur etmək və zorakılığa əsaslanan tənzimlənmədən biz uzaq olmalıyıq, qarşılıqlı gözləmə prinsipinə əməl etməliyik. Hər kəs öz hüquqlarını, vəzifələrini başa düşməlidir və hər kəs çalışmalıdır ki, ailədə psixoloji iqlim rahat olsun, komfort olsun ki çünki bu ailədə böyüyən uşaq da komfort, psixoloji iqlimdə böyüməlidir ki, o travmasız, stressiz böyüsün və cəmiyyətə, dövlətə faydalı bir şəxs kimi formalaşa bilsin. Yəni, bu baxımdan biz övladlarımıza da ailədə hətta başa salmalıyıq ki, qarşılıqlı gözləmə, qarşılıqlı anlayış, hörmət hisslərini aşılamalıyıq. Sən qızsan, sən oğlansan deyə sərt bir sərhəd də qoymaq düzgün deyil. Amma hesab edirəm ki, bu sərhədlər həfif olsa da olmalıdır. Çünki bizim qızlarımız qız, oğlanlarımız oğlan kimi böyüməlidir. Hətta müdriklərimiz, filosoflarımız, orta əsr düşüncə sahiblərimizdə də bu cür yanaşmalar olurdu. Bu özəllikləri şübhəsiz ki biz qorumalıyıq. Amma bu özəlliklər xəfif olmalıdır, sərt olmamalıdır. Bu sağlam düşüncə səviyyəsində olmalıdır. Biz gözləməliyik ki, qadınlarımızın məsumluğu, iffəti, onların namusu isməti yerində olmalıdır. Eyni zamanda kişilərin də özünün kişi xarakteri də olmalıdır. Ancaq bu heç də o anlama gəlmir ki, qadın kişinin qulluqçusu olmalı, qadın kişiyə itaətkarcasına bir münasibətdə olmalıdır. Qarşılıqlı hörmət və qarşılıqlı anlaşma əsasında belə münasibətlər tənzimlənməlidir”.

**Ayşən Vəli**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə " uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# İnternetdə keçən ömür, smartfondan asılı həyat

## *Virtual asılılıq bizim sağlamlığımız üzərində hökmranlıq edir*





***Dövrümüzdə bütün yaş kateqoriyalarından olan insanın internet, smartfon, planşet və kompüter kimi məlumat və əyləncə mənbələrindən uzaq durması mümkün deyil. Əvvəl yuxarı yaşalarda rastlanan internet asılılığı indi uşaqlar və körpələrdə də çox müşahidə edilir. Evdə və ya işdə, ictimai nəqliyyatda gedərkən telefon əlində olan insanların sayı sürətlə artır.***

Əvvəl ictimai nəqliyyatda, parklarda qəzet-kitab oxuyan insanları az da olsa görmək olurdu, amma indi kitabı, qəzeti də telefondan oxuyuruq. Asılılığımız hər gün artır. Əgər telefonun tez xəbərdarlıq siqnalı verirsə, başqa işlərin olsa da sosial şəbəkələrdə gəzirsənsə, işin heç vaxt bitmirsə, gözün, qulağın daim telefonda, kompüterdədirsə, deməli, sən də internet asılılığından əziyyət çəkirsən.



İşi asanlaşdırmaq və məhsuldarlığı artırmaqla yanaşı, kompüterlə, smartfonlar tədricən gündəlik həyatın müxtəlif sahələrinə tamamilə nüfuz etdi, hətta perçimləndi desək daha doğru olar. Bu texnologiya vasitəsi ilə məlumat əldə etmək, paylaşmaq kimi faydalı işlər görmək olur, lakin o həyatımıza bir çox problem də daxil edib. İnternet, smartfon asılılığı onun insana, ətrafına və münasibətlərinə zərər verməyə başladı. Vəziyyət o həddə çatıb ki, mütəxəssislər kompüter-telefon asılılığını narkomaniyaya bənzədirlər.

Uzun müddət kompüterdən istifadə edən insanlar narkomanların zərərli maddələrdən olan asılılığına bənzər bir vəziyyətdə olurlar. İnternet aludəçiləri uzun müddət internetə girə bilmədikdə, gərginlik, əsəbilik, narahatlıq, nə edəcəklərini bilməmək kimi davranışlar göstərə bilərlər. Zaman keçdikcə kompüter qarşısında daha uzun müddət qalmaq istəyirlər, internetə baxa bilmədikləri müddətcə fikirləri daim internetdədir, hər fürsətdə telefonda, kompüterdə interneti gəzmək onları rahatladır, treslərini azaldır. Bu asılılığın zərərini görsələr də bu vəziyyətdən yaxa qurtara bilmirlər. Bu cür insanlar adətən uzun müddət kompüterlə məşğul olduqlarını, internetdə çox vaxt itirdiklərini, telefonsuz qala bilmədiklərini inkar edirlər, vəziyyətlərinin kritik olduğunu qəbul etmirlər.

### Problemləri həll etmək yerinə internetdə gəzişirik

Bir çox insan gündəlik problemlərindən xilas olmaq, tənhalığını unutmaq, narahatlıq və depressiv hisslərini yatırtmaq üçün internetdə vaxt keçirməyi çarə bilir. İnternetdə vaxt itirdikcə diqqət dağılır, fərqli istiqamətlərə bölünür və dolayısı ilə şəxsi qayğılarını unutmağa, narahatlığının azalmasına və rahatlıq hiss etməyə səbəb olur. Ancaq bir müddət sonra istirahət üçün istifadə edilən internet insana zərər verməyə başlayır. Şəxsi həyatında problemlər üst-üstə yığılıb, amma insan onları həll etmək yerinə onlardan qaçır, internetdə vaxt öldürür və beləcə həyatının səhvini edir.

Xüsusilə depressiv şikayətləri olan insanlar asanlıqla internet aludəçisi ola bilirlər. Depressiyanın yaratdığı pessimizm, narahatlıq internetdə vaxt keçirərkən unudulsa da sosial izolyasiya, özünü təcrid, təklik depressiyanın dərəcəsini daha da artırır. Narkotik, alkoqol, qumar kimi asılılığı olan insanlarda müşahidə olunan davranışlar xüsusilə depressiv internet asılısı insanlarda da müşahidə edilir.

### Asılı olduğumuzu necə anlayaq?

Əslində, çox insan internet asılısı olduğunu qəbul etmək istəmir, lakin müşahidələr və əlamətlərə görə az da olsa bunu etiraf edənlər var. Ümumiyyətlə, hansı əlamətlərə görə internetdən asılı olduğumuzu anlaya bilərik? Birinci əlaməti gərəksiz halda uzun müddət onlayn qalmaqdır. Şəxsi işlərin daim gün sonuna saxlanması və ya növbəti günə qalması da internetdə çox vaxt keçirənlərin problemidir. Yeməklər ayaqüstü qidalanmaya keçir, daha rahat başa gələn qidalar qəbul edilir, yuxu minimuma enir, həmçinin yuxu rejimi anormal olur.

Başqa bir əlamət də internetdə çox vaxt keçirdiyinizə dair ailə üzvlərinin iradlarını qəbul etməmənizdir. Onlayn söhbət, dostluqlar, real ünsiyyətdən çox olduqda artıq virtuallaşdığınızı qəbul edin. Kədərləndə, darıxanda ailə üzvlərinizlə, dostlarınızla söhbətləşmək yerinə online olmaq istəyəndə də asılı olduğunuzu etiraf etmiş olursunuz. Özünüzə vaxt məhdudiyyəti qoya bilmirsinizsə, yuxu, qidalanma rejimi pozulubsa, piylənmə, bel, boyun, bilək ağrılarından əziyyət çəkirsinizsə, etiraf edin, siz internetdən asılısınız.

### İnternetdən necə yaxa qurtarmalı?

Əvvəlcə insanı internetdə "yatıb-durmağa" vadar edən səbəb müəyyən edilməlidir. Daha sonra özünüzə iş və mükafat sistemi qura bilərsiniz, həllini gözləyən problemləri aradan qaldırıb bunun müqabilində özünüzə internetdə vaxt keçirmək üçün müddət hədiyyə edin və həmin müddət bitdikdə internetdən ayrılmağı bacarın. Hər axşam eyni vaxtda kompüterinizi və ya mobil telefonunuzu "ofline" rejimə keçirin. Yalnızlıq hissini aradan qaldırmaq üçün internetdə vaxt keçirmək yerinə kitab oxumaq lazımdır, ailə üzvləri və ya dostlarla canlı söhbətə üstünlük verilməlidir.

Kompüter vasitəsilə ünsiyyət həmişə sizi emosiyadan məhrum edəcək, smartfondan asılı qalmaq insani hisslərinizi qətl edəcək. Ona görə də internetdə, kompyuter önündə, əlinizdəki smartfonda vaxt itirərkən həyatınızdan nəyi qurban verdiyinizi düşünməlisiniz. Övladınızla, dostunuzla parkda yarım saat gəzmək və ya həyat yoldaşınızla söhbətləşərək birlikdə çay içmək sizin psixoloji sağlamlığınız üçün daha vacibdir. Kompyuteri və telefonu yataq otağınızdan uzaq saxlayın, ümumiyyətlə yataq otağına televizor qoyulması belə yuxu rejiminin pozulmasına səbəb olur.

İnsan, kompüterdən və ya telefondan bu qədər uzun müddət istifadə etməzdən əvvəl bu həzzin onun sağlamlığından nələri apardığını fikirləşməlidir. Unutmaq olmaz ki, zaman çox qiymətlidir, axıb gedərkən bizim sağlamlığımızdan da bir çox şeyi özü ilə aparır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
17 avqust
2024-cü il

# Bu il Azərbaycana 1.5 milyondan çox turist gəlib



**2024-**cü ilin yanvar-iyul aylarında Azərbaycan Respublikasına dünyanın 182 ölkəsindən 1 milyon 502,7 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 31,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Bu barədə SİA-ya Dövlət Statistika Komitəsindən bildirilib. Məlumata görə, gələnlərin 29,2 faizi Rusiya Federasiyası, 16,5 faizi Türkiyə, 9,3 faizi Hindistan, 8,3 faizi İran, 4,2 faizi Səudiyyə Ərəbistanı, 4,0 faizi Gürcüstan, 3,2 faizi Qazaxıstan, 2,7 faizi Pakistan, hər birindən 1,7 faiz olmaqla Özbəkistan və Birləşmiş Ərəb Əmirlikləri, 1,5 faizi Çin, hər birindən 1,3 faiz olmaqla Ukrayna və Küveyt, 1,2 faizi Türkmənistan, hər birindən 1,1 faiz olmaqla İsrail və Oman, 1,0 faizi Belarus, 10,7 faizi digər ölkələrin vətəndaşları olmuşdur. Gələnlərin 67,1 faizini kişilər, 32,9 faizini qadınlar təşkil edib.

Ötən ilin eyni dövrü ilə müqayisədə Hindistandan gələnlərin sayı 2,5 dəfə, Cənubi Koreyadan - 2,3 dəfə, Çindən - 2,1 dəfə, İspaniyadan - 1,8 dəfə, Qazaxıstandan - 1,8 dəfə, Qırğızıstandan - 1,7 dəfə, Filippindən - 1,6 dəfə, Pakistandan - 1,5 dəfə, İordaniyadan - 49,7 faiz, Omandan - 47,0 faiz, İrandan - 46,5 faiz, Səudiyyə Ərəbistanından - 42,8 faiz, İtaliyadan - 38,7 faiz, Yəməndən - 35,9 faiz, Türkmənistandan - 33,0 faiz, Polşadan - 31,8 faiz, Küveytdən - 29,3 faiz, Misirdən - 29,2 faiz, Özbəkistandan - 25,6 faiz, ABŞ-dan - 21,9 faiz, Ukraynadan - 20,5 faiz, Türkiyədən - 19,6 faiz, Almaniyadan - 19,3 faiz, Tacikistandan - 17,8 faiz, Rusiya Federasiyasından - 16,9 faiz, Bəhreyndən - 14,3 faiz, Fransadan - 13,5 faiz, Gürcüstandan - 11,8 faiz, Birləşmiş Ərəb Əmirliklərindən - 7,5 faiz artıb.

2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə körfəz ölkələrindən gələnlərin sayı 39,6 faiz artaraq 258,8 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 28,0 faiz artaraq 57,1 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 20,5 faiz artaraq 576,1 min nəfər olub.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Məşhur aktyorun ölümünə görə 5 nəfər həbs olundu

***ABŞ-da məşhur aktyor Metyu Perrinin ölümü ilə əlaqədar 5 nəfər saxlanılıb. ABŞ Prokurorluğunun yaydığı məlumata görə, həbs olunanlar 2 həkim, Metyu Perrinin evində yaşayan şəxsi köməkçisi, "ketamin kralı" adlandırılan şəxs və digər maddə tədarükçüsüdür.***



Onlar aktyorun ölümünə bir neçə həftə qalmış ona ketamin adlı maddə verməkdə ittiham olunurlar.

Onlar nə etdiklərindən xəbərdar olublar və maddədən asılı olan şəxsin vəziyyətindən sui-istifadə edərək bunu daha çox pul qazanmaq məqsədilə ediblər.

# Sumqayıtda avtomobil üç piyadanı vurub

***Sumqayıtda 3 piyadanın vurulması ilə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. SİA məlumat verir ki, hadisə Zülfü Hacıyev küçəsində qeydə alınıb.***



Belə ki, Sumqayıt şəhər sakini, 1999-cu il təvəllüdlü Əfəndi Nihat Aydın oğlu idarə etdiyi "Chevrolet" markalı avtomobillə piyadalar -1992-ci il təvəllüdlü Mirzəliyeva Günay Nazim qızını, 2013-cü il təvəllüdlü Mirzəliyeva Ayan Azər qızını və 2015-ci il təvəllüdlü Mirzəliyeva Solmaz Anar qızını vurub. Xəsarət alan şəxslər xəstəxanaya yerləşdirilib. Faktla bağlı araşdırma aparılır.

# London klubu 19 yaşlı futbolçu transfer etdi



"Tottenhem" hücum xəttini yeni oyunçu ilə gücləndirib. London təmsilçisi "Börnli"dən Uilson Odoberti heyətinə cəlb edib. Bu barədə klubun mətbuat xidməti məlumat yayıb. 19 yaşlı hücumçu ilə 2029-cu ilin yayına kimi müqavilə imzalanıb. Fransalı oyunçu "Tottenhem"də 28 nömrəli forma ilə çıxış edəcək.


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700